# YENİ AZƏRBAYCAN

05 iyun 2026-cı il, cümə
№ 096 (7163)
Qiymətı 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Dövlətin növbəti sosial dəstəyi

## Məcburi köçkünlərin mənzil hüququ tanınacaq



Bax səh. 2

## 31-ci "Bakı Enerji Həftəsi" nə ilə yadda qaldı?

Bax səh. 3



## "Milli kimliyin formalaşmasında mənəvi dəyərlərin rolu"

Bax səh. 5

## Siyasi dialoq davam edir...



Bax səh. 4

## Pan-Avropa enerji təchizatçısı

Bax səh. 4

## Modernləşdirilmiş polad magistral

Bax səh. 5

## Dörd mərhələli həll...
### Hörmüz boğazının blokadası nə vaxtadək davam edəcək?

Bax səh. 7

## Güllələnən bədən, susmayan söz!

Bax səh. 8



## Parisin yeni "nüvə oyunu"

Bax səh. 7



## Avropanın miqrantlardan xilas yolu - yeni qaydalar və mexanizmlər

Bax səh. 6

# Dövlətin növbəti sosial dəstəyi

## Məcburi köçkünlərin mənzil hüququ tanınacaq

**Postmüharibə dövründə Böyük Qayıdış proqramının uğurla reallaşdırılması, bərpa olunan yaşayış məntəqələrinin intensiv şəkildə məskunlaşdırılması müvafiq qanunvericilik bazasının yenilənməsi zərurətini yaradıb. Təxminən 30 il ərzində son dərəcə ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın həyatında yeni dönəm başlayıb. Təbii ki, hüquqi baza da yeni reallıqlara uyğunlaşdırılmalıdır. Beləliklə, Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi məsələsi gündəmə gəlib. Bu günlərdə bəhs olunan qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında ətraflı müzakirə olunub. Müzakirəyə təqdim olunan qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.**





### Azərbaycan dövləti hər zaman qaçqın və məcburi köçkün vətəndaşlarının yanında olub

Azərbaycan sosial dövlətdir. Ardıcıllıqla həyata keçirilən dövlət siyasətinin mərkəzində insanların mənafeyi dayanır. Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən bu strateji xəttə uyğun olaraq ölkədə ədalətli resurs bölgüsü bütün kateqoriyalardan olan vətəndaşları əhatə edir. Xüsusilə də ötən dövrdə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllinə xüsusi həssaslıqla yanaşılıb. Müzakirələrdə də bildirldiyi kimi, müvafiq kateqoriyadan olan insanlar uzun illər ərzində Azərbaycan dövlətinin xüsusi qayğısı ilə əhatə olunub. Onların sosial və digər problemlərinin həlli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzində olub. Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illər ərzində 75 Fərman və Sərəncam imzalanıb, Milli Məclis tərəfindən 11 Qanun qəbul edilib. Dövlət tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilib.

Qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırlması onların sosial cəhətdən dəstəklənməsinin mühüm istiqamətini təşkil edib. Məlumdur ki, ermənilərin ağır müharibə cinayətlərinin nəticəsi olaraq ev-eşiklərindən didərgin düşən bu insanlar çadırlarda, vaqonlarda, yarımçıq tikililərdə məskunlaşmaq məcburiyyətində qalmışdılar. Belə vəziyyəti aradan qaldırmaqdan ötrü dövlət məqsədli proqramlar qəbul edib. 2004-cü ildə təsdiqlənmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu istiqamətdə əsas strateji sənədlərdən biri olub. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsində ilk müşavirəsini məhz bu məsələyə həsr etməsi Azərbaycan dövlətinin qaçqın və məcburi köçkün soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırlmasına necə böyük həssaslıqla yanaşdığını əyani şəkildə təsdiqləyir. Xatırladaq ki, torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilib. 62 mindən çox məcbur köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət tərəfindən həyata keçirilən ən mühüm tədbirlərdən biri ağır şəraitli məskunlaşma yerlərinin mərhələli şəkildə ləğv edilməsi olub. 2007-ci ildə ölkə ərazisində mövcud olan 12 çadır düşərgəsi və dəmir yolu üzərindəki yük vaqonlarından ibarət qəsəbələr ləğv edilib. Sonuncu fin tipli qəsəbə isə 2016-cı ildə bağlanıb.

Dövlətin məcburi köçkünlərin sosial müdafiəsi istiqamətində həyata keçirdiyi siyasətin miqyası ayrılmış maliyyə resurslarında da öz əksini tapıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatlarına görə, son onilliklər ərzində məcburi köçkünlərin sosial problemlərinin həlli üçün dövlət tərəfindən 6 milyard manatdan çox vəsait sərf olunub. Təkcə mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihələrə 2,3 milyard manat vəsait yönəldilib.

Bu vəsait hesabına uzun illər ərzində yüzlərlə yaşayış məntəqəsi, məktəb, tibb müəssisəsi, inzibati bina və mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Nəticədə, əvvəlki dövrdə çadır düşərgələrində, yük vaqonlarında və yararsız binalarda yaşayan on minlərlə ailənin həyat şəraiti xeyli dərəcədə yaxşılaşıb.

Məcburi köçkünlərin sosial müdafiəsinin əsas elementlərindən biri də vahid aylıq müavinət sistemi olub. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu ildə vahid aylıq müavinətin məbləği 50 faiz artırılıb. Nazirlər Kabinetinin açıqladığı məlumatlara görə, 2025-ci ilin sonuna qədər vahid aylıq müavinət alan keçmiş məcburi köçkünlərin sayı 387,3 min nəfər təşkil edib.

### Müvəqqəti məskunlaşma modelindən daimi məskunlaşma modelinə keçid

Postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərin bərpasına burada zəruri infrastruktur quruculuğu ilə başlanılıb. Çünki bunsuz Qarabağa həyatı qaytarmaq mümkün olmazdı. Qısa müddətdə bəhs olunan ərazilərdə onlarca su, enerji təminatı, yol tikintisi layihələri reallaşdırlıb. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb, yeni mərhələdə qarşıya qoyulan hədəflərin reallaşdırılması məqsədilə dövlətimizin başçısının 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiqlənib. Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına başlanmasından ötən dörd il ərzində bu məqsədlə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb.

İşğaldan azad olunmuş ərazilərdə zəruri infrastruktur layihələrinin icrası tamamlandıqdan sonra əsas diqqət yaşayış məntəqələrinin bərpasına və onların məskunlaşdırlmasına yönəldilib. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin bərpası yeni yanaşmalar əsasında həyata keçirilir, burada "ağıllı şəhər", "ağıllı kənd" modellərinin tətbiqinə üstünlük verilir. Bütövlükdə, bəhs olunan ərazilər dövlət başçısı tərəfindən yaşıl zona elan edilib. Artıq işğaldan azad olunmuş ərazilərin məskunlaşdırılmasına başlanılmasından 4 ilə yaxın vaxt ötür. Xalqımız üçün çox əziz olan bu yerlərə ilk köç karvanı 2022-ci il iyul ayının 19-da reallaşıb. Məskunlaşdırılan birinci yaşayış məntəqəsi isə "ağıllı kənd" konsepti ilə inşa oluanan Zəngilan rayonunun Ağalı kəndi olub. Sonradan kəndə mərhələlərlə yeni köç karvanları yola salınıb. Dörd il əvvəl Ağalıdan başlayan məskunlaşma hazırda daha geniş miqyasda davam etdirilir. Artıq məskunlaşan yaşayış məntəqələrinin sırasına Şuşa, Ağdam, Laçın, Kəlbəcər, Xankəndi, Xocalı və digər ünvanlar daxil edilib. Bütövlükdə, indiyədək Qarabağda və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin olunub. İşğaldan azad edilmiş ərazilərdə hazırda 85 minə yaxın soydaşımız yaşayır, təhsil alır və işlə təmin edilib.

Göründüyü kimi, işğaldan azad olunmuş ərazilərdə yeni reallıqlar yaranmaqdadır, həmçinin qaçqın və məcburi köçkün soydaşlarımızın həyatı dəyişir. Müzakirələrdə parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, qanun layihəsi Vətən müharibəsində qazanılan Qələbənin hüquqi nəticəsi olmaqla, məcburi köçkünlük dövründən Böyük Qayıdış mərhələsinə keçidi təsbit edir.

Beləliklə, nəzərdə tutulan dəyişikliklər dövlətin məcburi köçkün vətəndaşlarının mənzil təminatına starteji yanaşmasına adekvatdır və proseslə bağlı hüquqi bazanın möhkəmləndirilməsinə xidmət edir. İşğal dövrü ilə müqayisədə postmüharibə mərhələsində müvafiq kateqoriyadan olan vətəndaşların mənzil təminatına yanaşma fərqlidir. Əgər işğal illərində bu proses müvəqqəti səciyyə daşıyırdısa, böyük qələbələrimizdən sonra dövlət azad ərazilərin mümkün qədər qısa müddətdə daimi məskunlaşdırılmasını hədəfləyib. Müvafiq qanuna nəzərdə tutulan dəyişiklik də bu strateji xətti hüquqi baxımdan dəstəkləyir.

### Yurd yerlərinə qayıdan məcburi köçkünlərə müjdə - onlara "Çıxarış" sənədi veriləcək

Əslində, qanunvericilik bazasının yenilənməsi, dəyişikliklər paketi yurd yerlərinə qayıdan məcburi köçkünlərə xoş bir müjdədir. Layihənin qüvvəyə minməsi ilə onların mülkiyyət hüquq tanınacaq. Məlumdur ki, işğal dövründə və son dörd ildə dövlət tərəfindən tikilən mənzillər məcburi köçkünlərə müvəqqəti istifadə (icarə əsasında) məqsədilə verilirdi. İndi isə qaydalar dəyişir. İşğaldan azad olunmuş ərazilərə köçən vətəndaşlara verilən mənzillər onların xüsusi mülkiyyəti kimi tanınacaq və həmin mənzillərə mülkiyyət hüququnu təsdiqləyən "Çıxarış" (Kupça) sənədi veriləcək. "Mənzil Məcəlləsinə ediləcək dəyişiklik nəticəsində yeni institut - İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondu yaranacaq və bu fonda daxil olan yaşayış məntəqələri məcburi köçkünlərin köçürülməsi və bu sahələrin onların mülkiyyətinə verilməsi məqsədilə istifadə olunacaq", - deyə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev vurğulayıb.

Nəzərdə tutulan bu dəyişiklik mahiyyət etibarı ilə böyük aktuallıq daşıyır və bir tərəfdən müvafiq kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsini, digər tərəfdən isə azad ərazilərimizin məskunlaşdırılmasının daha güclü şəkildə təşviq edilməsini hədəfləyir. Biz hələ genişmiqyaslı infrastruktur quruculuğundan sonra ərazilərin məskunlaşdırılmasının başlanğıc mərhələsindəyik. Yurd yerlərinə qayıdan insanların mülkiyyət hüquqlarının tanınması prosesə yeni dinamika vermək baxımınndan çox önəmlidir. Azərbaycan dövləti nə istəyir? Əsas məqsəd ondan ibarətdir ki, azad ərazilərdə qalıcı həyat təmin olunsun, insanlar bura qayıtmalarından məmnunluq duysunlar və xoşbət həyat yaşasınlar. Böyük Qayıdış proqramı kompleks şəkildə reallaşdırılır. Yəni postmüharibə dövründə azad ərazilərdə yalnız mənzillər, yaşayış evləri inşa olunmur. Paralel şəkildə iş yerləri, təhsil, səhiyyə ocaqları, istirahət, əyləncə məkanları yaradılır, rəqəmsal infrastruktur, xidmət sektoru qurulur. Mülkiyyət hüququnun tanınması məcburi köçkün soydaşlarımızın onlar üçün nəzərdə tutulan rahatlıqlara əlçatanlığını artıracaq və digər vətəndaş hüquqlarının təmin olunmasına geniş imkanlar açacaq. Burada bütövlükdə regionda təhlükəsizliyin təmin olunması ilə bağlı məsələləri də nəzərə almaq lazımdır.

Başqa bir mühüm məqama da diqqət çəkək. Bir azərbaycanlı mentalitetində öz evinə sahiblik və bağlılıq hissi çox güclüdür. İnsanın evinə, mənzilinə bağlılığı isə elə Vətənə, el-obaya bağlılığı deməkdir. Vətəndaşın mənzil hüququnun qanunvericilik əsasında tanınması uzunmüddətli perspektiv üçün planlar qurması, özünün, ailəsinin gələcəyini doğma yerlərlə bağlaması və regional sosial-iqtisadi proseslərə fəal şəkildə qoşulmasına geniş imkanlar açır. Bir qədər bundan əvvəl kənd təsərrüfatı məsələlərinə həsr olunan müşavirədə Prezident İlham Əliyev şəhərdən kəndə qayıdış kimi vacib bir məsələni gündəmə gətirdi. Bu nöqteyi-nəzərdən də azad ərazilərdə məcburi köçkün soydaşlarımızın mülkiyyət hüquqlarının tanınması böyük əhəmiyyət daşıyır.

Nəzərdə tutulan dəyişiklik yalnız sosial dəstək xarakteri daşımır. Mülkiyyət hüququnun tanınması paralel şəkildə vətəndaşın sosial məsuliyyət hissini güclənməsi anlamına gəlir. O öz mənzilinin sahibi olmaqla həm də konkret br yaşayış məntəqəsinin daimi sakininə çevrilir. Müliyyətin təsdiqlənməsi vətəndaşa geniş hüquqlar tanıyır, eyni zamanda onun ailəsinə, mənzilinə, sakini olduğu kənd və yaxud şəhərə münasibətdə cavabdehliyini artırır ki, bunun da azad ərazilərin dayanıqlı inkişafına mühüm töhfə olacağı şübhəsizdir.

### Məcburi köçkünlərin statusu dəyişir

İndiyədək məcburi köçkün soydaşlarımızın daşıdıqları status işğal dövrünün reallıqlarına uyğun idi. Müzakirələrə çıxarılan qanun layihəsində isə bu statusun Böyük Qayıdış proqramının uğurla reallaşması nəticəsində formalaşan yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılması nəzərdə tutulur. Beləliklə, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, müvafiq kateqoriyadan olan insanların statusu aşağıdakı qaydada dəyişəcək:

- Şəxs əvvəlki yaşayış yerinin əvəzinə (yaşadığı regionda) müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə təmin edildikdə,

- Şəxs dövlət tərəfindən təklif olunan yaşayış yerindən imtina etdikdə,

- İndiyədək əvvəlki yaşayış yerinin əvəzinə işğaldan azad edilmiş ərazilərdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edilmiş məcburi köçkünlərin məcburi köçkün statusu bu Qanun qüvvəyə mindiyi tarixdən itirilir.

Qaçqın və məcburi köçkün soydaşlarımızın statusunun dəyişdirilməsi onların bütün sosial təminatlardan dərhal məhrum edilməsi anlamında qəbul edilməməlidir. Dövlətin sosial siyasətinə uyğun olaraq bunun üçün adaptasiya mərhələsi kimi səciyyələndirə biləcəyimiz yumşaq keçid mərhələsi nəzərdə tutulur. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, layihədə sosial müdafiə tədbirlərinin müddətinə də aydınlıq gətirilir. Mövcud üçillik güzəşt müddətinin hesablanması şəxsin statusunu itirdiyi və ya mənzildən imtina etdiyi tarixdən müəyyən ediləcək.

Bundan başqa, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunun 5-ci maddəsinə təklif olunan dəyişikliyə əsasən, məcburi köçkünlərin köçürülməsi mexanizmi də dəyişdirilir. Yeni qaydalara əsasən, dövlət öhdəliyi yaşayış sahəsinin təklif edilməsi ilə icra olunmuş hesab ediləcək. Bununla da həm məcburi köçkünlərin mənzil hüquqları, həm də üçüncü şəxslərin maraqları arasında balans təmin olunacaq.

*Mübariz ABDULLAYEV*

# 31-ci “Bakı Enerji Həftəsi” nə ilə yadda qaldı?

**Paytaxtımız 31-ci dəfə “Bakı Enerji Həftəsi”nə (“Baku Energy Week”) ev sahibliyi etdi. Dünyada enerji məsələləri ətrafında müzakirələr müxtəlif ünvanlarda və platformalarda aparılır. Bəs “Bakı Enerji Həftəsi” hansı özəllikləri və əlamətdar nəticələri ilə yadda qalacaq? Bəri başdan demək mümkündür ki, “Bakı Enerji Həftəsi” çərçivəsində baş tutan sessiyalarda, panel iclaslarında dünyanın qlobal enerji gündəliyi ilə bağlı aktual müzakirələr aparıldı. Bütövlükdə, tədbir qlobal enerji həmrəyliyinə mühüm töhfə kimi dəyərləndirilir.**

## Dünyanın böyük marağı

Dünyada “Bakı Enerji Həftəsi”nə marağın artması əsas məqamlardan biridir. İldən-ilə tədbirə qatılan iştirakçı dövlətlərin coğrafiyası genişlənir, eyni zamanda təmsilçilərin sayı artır. Azərbaycan Prezidenti İlham Əliyevin “Bakı Enerji Həftəsi”nin açılış mərasimində iştirakı və çıxışı tədbirin yüksək statusunu və əhəmiyyətini vurğulayır. Ölkə başçısı sərgiləri ziyarət edərək iştirakçılar və ekspozisiyalar ilə tanış olub. ABŞ və Türkiyə prezidentləri, eləcə də Böyük Britaniyanın Baş naziri kimi dünya liderlərinin iştirakçılara məktub ünvanlamaları bu tədbirin beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini bir daha təsdiqləyir. “Bakı Enerji Həftəsi”nə əlaqədar dövlət strukturlarının, enerji sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbər şəxsləri, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçıları qatılıblar.

Bu il “Baku Energy Week”də dünyanın 44 ölkəsindən 274 şirkət iştirakını təsdiq edib. 31-ci “Baku Energy Forum”una ümumilikdə 600-dən çox nümayəndə qatılıb. İştirakçılar siyahısında Azərbaycanla yanaşı, Almaniya, ABŞ, BƏƏ, Böyük Britaniya, Çin, Estoniya, Fransa, İsveçrə, İtaliya, Macarıstan, Niderland, Norveç, Rumıniya, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya və digər ölkələrdən olan şirkətlər yer alıblar.






## “Bakı Enerji Həftəsi”nin tərəfdaşları və sponsorları

Uzun illərdir ki, “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) baş tərəfdaş qismində çıxış edir. Tədbir Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) tərəfindən dəstəklənir.

Tədbirin iştirakçıları, eləcə də tərəfdaşları və sponsorları sırasında “ABB”, “Acwa”, “AZEL Systems LLC”, “Baku Steel Company”, bp, “ExxonMobil”, “XRG”, “Gap İnşaat”, “GL”, “Gran Tierra Energy”, “Inpex”, “INTI”, “KMPG”, “Kolin İnşaat”, “Masdar”, “MOL Group”, “SLB”, “Umid Babek Operating Company (UBOC)”, “TotalEnergies” və “Türkiye Petrolleri AO” kimi nüfuzlu şirkətlər yer alıb. Forumun rəsmi avtomobil sponsoru “Imotors” MMC-dir. Bundan əlavə, “Bakı Enerji Forumu”nun intellektual tərəfdaşı qismində “Boston Consulting Group” çıxış edir. “Deloitte” forumun konsultativ tərəfdaşıdır. Tədbirin rəsmi bankı qismində ölkənin aparıcı korporativ maliyyə institutu PAŞA Bank çıxış edib.

Tərəfdaşlar arasında “Absheron Hotel Group”, “Accurate MMC” və “Bilbord.al” şirkətləri yer alıb. “Baku Energy Forum”un təşkilatçıları “Iteca Caspian” və onların beynəlxalq tərəfdaşları olan “ICA Events” və “Caspian Event Management FZ-LLC” şirkətləridir. Tədbir Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası (ASTA) tərəfindən dəstəklənib.

## Forumun ilk iş günündə

Forumun ilk iş günündə energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə “Davamlı və şaxələndirilmiş enerji gələcəyi naminə beynəlxalq əməkdaşlıq” mövzusunda nazirlər səviyyəsində sessiya təşkil olunub.

Sessiyada çıxış edən Pərviz Şahbazov bildirib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan və Xəzər regionunun qlobal enerji xəritəsində mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verən bu platforma hazırda yaşıl enerji tərəfdaşlıqları və Azərbaycanın investor kimi iştirakı ilə yeni strateji mərhələyə qədəm qoyub.

Pərviz Şahbazov qeyd edib ki, neft və qaz sektorunda qlobal investisiya məhdudiyyətlərinə baxmayaraq, Azərbaycanın hasilat sənayesi yeni inkişaf mərhələsinə daxil olur. Bu kontekstdə “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan ilk sərbəst qaz hasilatına başlanması, “Qarabağ” neft yatağı, “Şahdəniz Kompressiya”, “Abşeron” yatağının tammiqyaslı işlənməsi, “Ümid” II mərhələsi və “Bahar-Qum dəniz” layihələri, həmçinin quruda və dənizdə aparılan kəşfiyyat layihələri, eləcə də Yaxın Şərq, Mərkəzi Asiya və Afrikada SOCAR-ın investisiyaları ölkəmizin uzunmüddətli etibarlı enerji təchizatçısı mövqeyini daha da möhkəmləndirəcək. Ötən il Avropa İttifaqının boru kəməri ilə qaz idxalının 8,1 faizinin Azərbaycanın payına düşdüyü vurğulanaraq bildirilib ki, ötən il və bu ilin ilk 4 ayında Avropa 16,7 milyard kubmetr, Türkiyə 12,8 milyard kubmetr, Gürcüstan 3,3 milyard kubmetr, Suriya isə 800 milyon kubmetr Azərbaycan qazı ilə təchiz edilib.

Daha sonra Beynəlxalq Bərpaolunan Enerji Agentliyi (IRENA) və Energetika Nazirliyinin birgə təşkilatçılığı ilə Mərkəzi Asiyada Enerji keçidi üzrə növbəti İnvestisiya Forumu keçirilib. Çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, ilk dəfə COP29 çərçivəsində təşkil olunan forum artıq enerji keçidi, investisiyalar və regional əməkdaşlıq üzrə davamlı dialoq platformasına çevrilib. Nazir qeyd edib ki, IRENA tərəfindən irəli sürülən APRECA təşəbbüsü Mərkəzi Asiya ilə qonşu regionlar arasında bərpaolunan enerji və kritik materiallar sahəsində əlaqəliliyin gücləndirilməsi, enerji keçidinin sürətləndirilməsi və investisiya imkanlarının genişləndirilməsi baxımından mühüm platformadır.

Forum APRECA regionunda bərpaolunan enerji əsaslı enerji keçidinin təşviqinə dair Nazirlər Dialoqu ilə davam edib. Tədbir çərçivəsində Azərbaycanın enerji keçidi sahəsində uzunmüddətli baxışını əks etdirən “Azərbaycan üçün Dayanıqlı İnkişaf Məqsədi 7 üzrə Yol Xəritəsi” sənədi də təqdim edilib.






## D-8 Üzv Dövlətlərinin Enerji Nazirlərinin 1-ci görüşü

Bakı Enerji Həftəsi” çərçivəsində İnkişaf etməkdə olan Səkkiz Ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) enerji nazirlərinin ilk iclası keçirilib. “Karbohidrogenlər, enerji keçidi və enerji bağlantıları üzrə əməkdaşlığın genişləndirilməsi” mövzusunda keçirilən iclasda çıxış edən energetika naziri Pərviz Şahbazov Azərbaycanın D-8-ə üzvlüyünün Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş çoxşaxəli xarici siyasət kursunun və uğurlu enerji diplomatiyasının məntiqi davamı olduğunu bildirib. Nazir vurğulayıb ki, qlobal enerji bazarlarında müşahidə olunan dəyişikliklər, geosiyasi gərginliklər, enerji keçidi və elektrikləşmənin sürətlənməsi enerji siyasətində şaxələndirməni strateji zərurətə çevirib. Bu baxımdan D-8 platforması Azərbaycan üçün Avropa ilə yanaşı, Asiya, Yaxın Şərq və Afrika istiqamətlərində də enerji əməkdaşlığının genişləndirilməsi baxımından mühüm imkanlar yaradır. Çıxış zamanı Azərbaycanın enerji təhlükəsizliyi ilə enerji keçidi arasında balanslı siyasət həyata keçirdiyi, neft-qaz, elektrik enerjisi və yaşıl enerji sahələrində regional enerji dəhlizlərinin inkişafına töhfə verdiyi qeyd olunub. D-8 ölkələri ilə enerji əməkdaşlığının perspektivlərinə toxunularaq Türkiyə, Pakistan, İran, Misir, İndoneziya, Banqladeş, Malayziya və Nigeriya ilə həyata keçirilən və nəzərdə tutulan layihələr barədə məlumat verilib. Neft və qaz ticarəti, LNG təchizatı, elektrik enerjisi mübadiləsi, bərpaolunan enerji, enerji infrastrukturu və investisiya enerji əməkdaşlığının potensial istiqamətləri kimi qeyd olunub.

Energetika naziri Pərviz Şahbazov deyib ki, ortaq dini və mədəni dəyərləri bölüşən dövlətləri birləşdirən və üç qitəni əhatə edən D-8 platforması enerji təhlükəsizliyi, enerji keçidi və enerji bağlantıları kimi mühüm istiqamətlərdə əməkdaşlığın daha geniş müstəviyə çıxarılmasına yol açır. Bakı Bəyannaməsi bu əməkdaşlığın gələcək konturlarını müəyyən edərək təmiz enerji, enerji bağlantıları, karbohidrogenlərin səmərəli idarə olunması, investisiya mühitinin gücləndirilməsi və texnoloji inkişafı əsas prioritetlər kimi təsbit edir. Gələcəkdə “D-8 Enerji və İqlim Mərkəzi”nin yaradılması isə bu əməkdaşlığın praktiki icrasını təmin edən mühüm institusional addım olacaqdır.

İclas çərçivəsində “Enerji əməkdaşlığı üzrə Bakı Bəyannaməsi” qəbul olunub və “D-8 Enerji və İqlim Mərkəzi”nin Nizamnaməsinin ilkin təqdimatı edilib.

İclasda D-8 təşkilatının Baş katibi Sohail Mahmudla yanaşı Türkiyə, Pakistan, Misir, Banqladeş, İran, İndoneziya və Malayziya nümayəndələri iştirak ediblər.

## “Bakı Enerji Həftəsi” çərçivəsində maliyyə dəyəri 8 milyard dollara yaxın olan müqavilələr imzalanıb

“Bakı Enerji Həftəsi” və 1-ci Azərbaycan-ABŞ İqtisadi Dialoqu çərçivəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və SOCAR tərəfindən ABŞ, Türkiyə, Serbiya, San-Marino və Fransa kimi müxtəlif ölkələrin qabaqcıl şirkət və qurumları ilə iqtisadiyyat, enerji, investisiya və rəqəmsal texnologiyalar sahələrini əhatə edən, ümumi maliyyə dəyəri 7,5 milyard dollar olan bir sıra mühüm saziş və memorandumlar imzalanıb.

İmzalanan bu müqavilələr ABŞ-Azərbaycan münasibətlərinin ənənəvi enerji tərəfdaşlığından strateji, şaxələndirilmiş və yüksək texnoloji iqtisadi müttəfiqliyə keçdiyini göstərir.

1-ci Azərbaycan-ABŞ İqtisadi Dialoqunun protokolu və ümumi 7,5 milyard dollarlıq portfel iki ölkə arasındakı iqtisadi münasibətlərin artıq daha sistemli, yüksəksəviyyəli və rəsmi bir platformaya (institusional müstəviyə) daşındığının sübutudur.

Bu razılaşmalar, həmçinin dünyanın ən böyük maliyyə, investisiya korporasiyalarının (“JP Morgan”, “Apollo Global Management”), energetika nəhənglərinin (“Chevron”, “Comstock Resources”) SOCAR-la və TANAP layihəsi ilə irimiqyaslı maliyyə sazişləri imzalaması, ABŞ biznesinin Azərbaycan iqtisadiyyatının sabitliyinə və uzunmüddətli kapital potensialına olan güclü etimadını əks etdirir.

Bu sənədlərdən biri “Kritik mineralların və nadir torpaq elementlərinin hasilatı və emalında təchizatın təmin edilməsi” adlı Azərbaycan və ABŞ arasında imzalanan çərçivə sənədidir. Sənədi Azərbaycan tərəfindən iqtisadiyyat naziri Mikayıl Cabbarov, ABŞ tərəfindən isə ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orr imzalayıb.

Bununla yanaşı, SOCAR, “TotalEnergies”, XRG və BOTAŞ arasında “Abşeron” qaz-kondensat yatağının tammiqyaslı işlənməsindən hasil olunacaq təbii qazın bir hissəsinin - hasilatın 50 faizinin (30 milyard kubmetr) 15 il müddətində Türkiyə bazarına uzunmüddətli satışı üzrə saziş imzalanıb. Sənədi SOCAR-ın prezidenti Rövşən Nəcəf, “TotalEnergies”in kəşfiyyat və hasilat üzrə Avropa regionu üzrə böyük vitse-prezidenti Martina Opizzi, XRG-in beynəlxalq qaz üzrə prezidenti Mohammed Al Aryani, BOTAŞ-ın direktoru və direktorlar şurasının sədri Abdulvahit Fidan imzalayıblar.

Digər imzalanan sənədlər Niş CCGT layihəsi ilə bağlıdır. Belə ki, SOCAR və “Serbiya Elektrik Enerjisi Sənayesi” (EPS) arasında Serbiyanın Niş şəhərində qaz elektrik stansiyasının tikintisi üzrə birgə müəssisənin səhmdarlar sazişinin əsas şərtləri və layihənin əsas kommersiya elementlərinin müəyyən edilməsi üzrə əsas şərtlər sənədi imzalanıb. Sənədə SOCAR-ın prezidenti Rövşən Nəcəf və EPS-in baş direktoru Duşan Jivkoviç imza atıb.

Həmçinin SOCAR ilə “Shell” arasında enerji sahəsinin müxtəlif istiqamətləri üzrə potensial əməkdaşlığın baza prinsiplərini müəyyən edən anlaşma memorandumu və digər sənədlər imzalanıb.

## Son iş günündə...

31-ci “Bakı Enerji Həftəsi” öz işini iyunun 2-də tamamlayıb. Forumun ikinci günündə “Liderlərin çıxışları: Enerji transformasiyası və gələcək strategiyaları mövzusunda liderlərin mövqeyi”, potensialın artırılmasına dair sessiyalar, “Enerji səmərəliliyi və ESCO investisiya platforması: Qlobal ESCO təcrübəsinin Azərbaycanın iri enerji istehlakçıları ilə əlaqələndirilməsi”, “Qaz sessiyası - bazarlar, nəqliyyat marşrutları və geopolitika”, “Enerji körpüləri: Yaşıl enerjidən regional inteqrasiyaya” mövzuları müzakirə olunub.

Əsas məruzəçi qismində çıxış edən SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib ki, Azərbaycan təbii qazı regionun ən etibarlı enerji mənbələrindən biri hesab edilir.

Müzakirələrdə SOCAR, “GL Group”, “Boston Consulting Group”un (BCG), “ESCON Enerji A.Ş, TotalEnergies” kimi şirkətlərin rəhbər şəxsləri iştirak ediblər.

“Bakı Enerji Həftəsi” çərçivəsində zəngin, faydalı və intensiv işgüzar proqram təqdim olunub. Proqrama panel müzakirələr, innovasiya, keys, forsayt və peşəkar inkişaf sessiyaları, təqdimatlar və imzalanma mərasimləri, eləcə də ənənəvi B2B və B2G görüşlər daxildir.

Sərgilər çərçivəsində təşkil edilən ənənəvi ikitərəfli işgüzar görüşlər (B2B və B2G) zamanı yerli və xarici şirkətlərin nümayəndələri üzbəüz formatda əməkdaşlıq və gələcək tərəfdaşlıq yollarını müzakirə ediblər. Ümumiyyətlə, bu il forumun proqramında dünyanın müxtəlif ölkələrini və fərqli enerji sahələrini təmsil edən 60-dək spiker yer alıb.

***Mübariz FEYİZLİ***




# Pan-Avropa enerji təchizatçısı

## Cənub Qaz Dəhlizinin genişləndirilməsi Azərbaycandan qaz alan ölkələrin sayını artıracaq

**Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində çıxışı zamanı Azərbaycanın mövcud neft və qaz ehtiyatlarının qlobal enerji təchizatında xüsusi əhəmiyyət daşımasına diqqət çəkdi. Xüsusilə də Yaxın Şərqdəki böhranın bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda ölkəmizin yanacaq tədarüklərində etibarlı və məsuliyyətli təminatçı kimi artan roluna toxundu. Qeyd edildiyi kimi, Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələri, eləcə də TANAP və TAP qaz marşrutları sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyini təmin edir. Bu gün Avropa enerji bazarını Cənub Qaz Dəhlizi olmadan təsəvvür etmək çətindir. Həmin dəhlizin həmmüəlliflərindən olan Azərbaycan bu marşrutla 16 ölkəyə qaz nəql edir ki, onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir.**

## Suriyanı enerji böhranından qurtaran dövlət

Azərbaycan etibarlı və sadiq qaz təchizatçısı kimi həcm və coğrafiya baxımından yanacaq ixracını artırmaqdadır. Respublikamızın yürütdüyü enerji siyasəti birbaşa yaxın tərəfdaşlıq və həmrəylik konseptinə əsaslandığından enerji sıxıntısı ilə üzləşən ölkələrə dəstək göstərilməsi xüsusi diqqətdə saxlanılır. Bu, ötən illər ərzində qonşu Gürcüstanın, Ukrayna, Belarus və digər dövlətlərin timsalında özünü təsdiqləyib. Ölkəmizin şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı statusu qazın bir çox ölkələrin enerji təhlükəsizliyində daha mühüm rol oynamaqdadır.

Ötən il Azərbaycan Suriyada geoiqtisadi tablonu nəzərə alaraq bu ölkənin də enerji problemlərinin həllinə dəstək göstərən ilk dövlətlərdən biri oldu. Bu ölkədə yaranmış enerji böhranını aradan qaldırmaq üçün öz dostluq əlini uzadan Azərbaycan Suriyaya qaz ixrac etməklə Yaxın Şərq bölgəsində də etimadlı təminatçıya çevrildi. Bu addım xarici enerji koalisiyası tərəfindən də yüksək dəyərləndirildi və ildə 1 milyard kubmetr həcmində Suriyaya ötürülən qazın həmin ölkə üçün həyati vacib əhəmiyyəti alqışlandı.

Çünki Azərbaycan qazının Suriyaya nəqli təkcə iqtisadi deyil, həm də geosiyasi məsələdir. Suriyanın qaz nəqli şəbəkəsi "Ərəb qaz şəbəkəsi" adlandırılan sistemə qoşulub, bu şəbəkəyə Suriya, Livan, İordaniya və Misir daxildir. Bu isə o deməkdir ki, Azərbaycan qazı bu ölkələrin hamısına ixrac edilə bilər və körfəz dövlətləri blokunda yeni enerji alyansı formalaşması qaçılmazdır. Çünki həmin ölkələr elektrik enerjisi istehsalı üçün ciddi şəkildə xammala ehtiyac duyurlar və bu baxımdan Azərbaycan yanacağı Suriya ilə yanaşı, digər ərəb dövlətlərinin də enerji infrastrukturunun dayanıqlılığına töhfə verə bilər.

## Ukraynanın enerji təminatçısı

Azərbaycanın enerji böhranından çıxardığı ölkələrdən biri də Ukraynadır. Ötən il Ukraynanın "Naftogaz" Şirkətlər Qrupu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) qrupuna daxil olan "SOCAR Energy Ukraine" şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında imzalanmış müqaviləyə əsasən, ilk dəfə Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükünə başlanılıb. Rus qazının tranziti dayandığından Ukraynanın qazpaylayıcı sistemi işləksiz qaldığı halda tamamilə iflic ola bilərdi və Azərbaycan Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçirməklə Ukraynanın enerji infrastrukturunu sıradan çıxmaqdan xilas edib.

Azərbaycan bu nümunəvi addımı ilə bir daha sübut edir ki, regionda əsil enerji əməkdaşlığı və dostluğu halqası yaradan qüdrətli dövlətdir. Bunu mühüm hadisə kimi dəyərləndirən "Naftogaz"ın baş direktoru Sergey Koretski bildirib ki, qaz tədarükü həcm baxımından kiçik olsa da, strateji cəhətdən mühüm addımdır və uzunmüddətli əməkdaşlığa yol açır. Saziş, həmçinin tədarük mənbələrinin şaxələndirilməsi və Ukraynanın enerji təhlükəsizliyinin gücləndirilməsinin daha bir nümunəsidir.

Cari ilin yanvar ayında Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Avstriya və Almaniyaya qaz tədarükünə başlanması bu coğrafi əhatəni bir qədər də genişləndirərək qazın birbaşa Qərbi Avropaya qədər nəqlinə səbəb olur. Belə ki, SOCAR Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə nəql edilən əhəmiyyətli həcmdə qazın Cənubi və Mərkəzi Avropa bazarlarından Qərbi Avropaya keçidini də təmin edib. Bu isə Azərbaycanın Avropa regionunda ən güclü təchizatçı və Pan-Avropa təminatçısı olduğunu bir daha təsdiqləyir.

## Ehtiyatlar artır, nəql coğrafiyası genişlənir

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2025-ci ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatlarının olduğu ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 il qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir.

Kəşf edilən qaz ehtiyatları ilə bağlı xarici şirkətlər və beynəlxalq qurumlar tərəfindən fərqli rəqəmlər təqdim edilsə də, Azərbaycan dünyanın ən çox qaz rezervləri olan dövlətləri sırasındadır. "Energy-Now Media" təşkilatının qiymətləndirmələrinə görə, Azərbaycan dünyada ən çox qaz ehtiyatları olan ilk 12 dövlət sırasında qərarlaşıb. BP şirkətinin qiymətləndirmələrinə görə, Azərbaycanda kəşf edilən qaz ehtiyatları 2,5 trilyon kubmetrdir. ABŞ Enerji İnformasiya İdarəsində də ehtiyatlarımızın 2 trilyon kubmetrdən çox olduğunu düşünürlər.

Mövcud proqnozlara görə, 2028-ci ildə ölkəmizin Avropa regionuna ixracı 20 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nda nəzərdə tutulmuş hədəflərə çatmağı təmin edəcək.

Cənub Qaz Dəhlizinin genişləndirilməsi sözsüz ki, Azərbaycandan qaz alacaq ölkələrin sayını da artıracaq. Prezident İlham Əliyevin bildirdiyi kimi biz qaz təchizatımızı artıracağıq: "Biz Xəzər dənizinin şərq sahillərində yerləşən dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik. Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisindən keçərək beynəlxalq bazarlara çıxarılır. Ümid edirəm ki, yaxın gələcəkdə təbii qazla bağlı da eyni sözləri deyə biləcəyik".

***E.CƏFƏRLİ***

# Siyasi dialoq davam edir...

## Prezident Administrasiyasında Yeni Zaman Partiyasının sədri Musa Ağayev qəbul edilib

İyunun 4-də Yeni Zaman Partiyasının sədri Musa Ağayevlə Prezident Administrasiyasında görüş keçirilib. Partiyanın Mətbuat xidmətindən verilən məlumata görə, Yeni Zaman Partiyasının sədri Musa Ağayevi qəbul edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə formalaşmaqda olan yeni siyasi konfiqurasiya çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan mühüm layihələr haqqında məlumatlar verib.

Aparılan fikir mübadiləsi çərçivəsində bildirilib ki, siyasi dialoq mühitinin təşviq olunması prosesində ölkədə fəaliyyət göstərən siyasi partiyalar böyük rol oynayır. Yaranmış sağlam əməkdaşlıq mühiti sayəsində siyasi partiyalar ictimai diskussiyalarda fəal iştirak edir və konkret sahələr ilə bağlı öz praktiki təkliflərini verə bilir. Görüş zamanı həmçinin regionda və dünyada cərəyan edən proseslər fonunda ölkədə milli həmrəylik mühitinin qorunmasının xüsusi əhəmiyyəti də vurğulanıb.

Daha sonra Azərbaycan dövləti tərəfindən reallaşdırılan müxtəlif səpgili layihələr ətrafında fikir mübadiləsi aparılıb. Ölkənin artan iqtisadi potensialı və beynəlxalq nüfuzunun Azərbaycanın qlobal layihələrin təşəbbüskarı kimi çıxış etməyə imkan verdiyi, habelə son dövrlərdə ölkədə təşkil olunan beynəlxalq tədbirlər sayının artmasının bunun təcəssümü olduğu vurğulanıb.

Müşahidə olunan müsbət dinamikanı və ölkənin dayanıqlı inkişafını təqdir edən Partiya sədri vurğulayıb ki, siyasi partiyalar bu gün aparılan siyasi dialoq sayəsində effektiv demokratik instituta çevrilib. Cəmiyyətdə siyasi partiyalar ilə bağlı müsbətə doğru dəyişilən ictimai fikir səbəbindən bu gün partiyalar ətrafında peşəkar və vətənpərvər qüvvələr toplaşır ki, onların potensialı dövlət və cəmiyyətin inkişafına xidmət edir.

Görüşün sonunda Musa Ağayev xüsusi olaraq vurğulayıb ki, Yeni Zaman Partiyası bundan sonra da milli maraqlar və dövlətçilik ənənələrinə sadiq qalaraq siyasi dialoq prosesində fəal iştirak edəcəkdir.



# “Milli kimliyin formalaşmasında mənəvi dəyərlərin rolu”











Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin üçüncü günündə gənc fəallarla “Milli kimliyin formalaşmasında mənəvi dəyərlərin rolu” mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə çıxış edən YAP İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları Mübariz Qurbanlı və Hikmət Babaoğlu, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov “Heydər Əliyev Məktəbi” layihəsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, milli-mənəvi dəyərlər xalqımızın əsrlər boyu formalaşan milli kimliyinin qorunması və inkişaf etdirilməsində mühüm rol oynayır. Qeyd olunub ki, Azərbaycan xalqının milli kimliyi dilimiz, adət-ənənələrimiz, ailə dəyərlərimiz, böyüyə hörmət və kiçiyə qayğı kimi xüsusiyyətlər üzərində formalaşıb və nəsildən-nəslə ötürülüb.

Çıxışlarda vurğulanıb ki, qloballaşma şəraitində gənclər üçün yeni imkanlar yaransa da, milli kimliyin qorunması məsələsi daha da aktuallaşır. İnformasiya axınının sürətlə artdığı müasir dövrdə gənclərin öz milli köklərinə bağlı qalması, tarixi və mədəni irsini dərindən öyrənməsi xüsusi əhəmiyyət kəsb edir. Mənəvi dəyərlər insanın şəxsiyyət kimi formalaşmasında, vətənə bağlılığının güclənməsində və vətəndaş məsuliyyətinin inkişafında mühüm rol oynayır.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması, milli kimliyinin möhkəmləndirilməsi və dövlətçilik ənənələrinin inkişaf etdirilməsi istiqamətində gördüyü mühüm işlərdən bəhs olunub. Qeyd edilib ki, Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycan dili, milli mədəniyyət, ədəbiyyat və tarixi irs dövlət qayğısı ilə əhatə olunub, azərbaycançılıq ideologiyası isə milli birliyin əsas sütunlarından birinə çevrilib.

Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının təşəbbüsü ilə tarixi və mədəni abidələrin bərpası, Azərbaycan dilinin inkişafı və milli-mədəni irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində mühüm layihələr həyata keçirilir. Eyni zamanda, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və milli kimliyə bağlılığının gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qeyd olunub.

Vurğulanıb ki, mənəvi dəyərlər yalnız milli ənənələrin qorunması ilə məhdudlaşmır. Ədalət, dürüstlük, məsuliyyət, elm və biliyə hörmət kimi keyfiyyətlər cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdəndir. Xüsusilə gənclərin milli kimliyinin formalaşmasında təhsilin roluna diqqət çəkən natiqlər bildiriblər ki, təhsil yalnız bilik vermir, həm də insanın mənəvi dünyasını zənginləşdirir, onun milli-mədəni irsə münasibətini formalaşdırır.

Qeyd olunub ki, mənəvi dəyərlər cəmiyyətin mənəvi təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Milli kimliyin qorunması isə dövlətin, ailənin, təhsil müəssisələrinin və bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir.

Layihə iştirakçıları Nigar Məmmədova, Qədir Məmmədov, Pəri Muradlı, Nuranə Rzayeva, Rəşad Məhərrəmov və digərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra layihə iştirakçıları üçün “Mənim xəyalımdakı ağıllı kənd” mövzusunda Yaradıcılıq Atelyesi (Workshop) müsabiqəsi təşkil olunub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Dizayn fakültəsinin dekanı, dosent Fərid Kərimovun moderatorluğu ilə keçirilən müsabiqədə gənclər dörd komanda şəklində iştirak edərək gələcəyin yaşayış məskənlərini öz baxışları əsasında dizayn ediblər.

Təqdimatlardan sonra müsabiqənin nəticələri açıqlanıb və “Şirvanşahlar sarayı” komandası qalib elan edilib.

Daha sonra YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov və YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov gənclərlə fikir mübadiləsi aparıblar. Görüşdə gənclərin layihə ilə bağlı fikirləri dinlənilib, iştirakçılar tərəfindən təkliflər səsləndirilib. Bu kimi tədbirlərin gənclər arasında ünsiyyətin genişlənməsinə və onların mədəni istirahətinin səmərəli təşkilinə töhfə verdiyi xüsusi vurğulanıb.

# Modernləşdirilmiş polad magistral

## Bakı-Tbilisi-Qars dəmir yolu xətti müasirləşdirilmədən sonra istifadəyə verilib

Gürcüstanın Axalkalaki dəmir yolu və logistika kompleksində regionun mühüm yükdaşıma marşrutlarından biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilmədən sonra açılışı olub. Tədbirdə Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu, habelə Qazaxıstan və Özbəkistanın dəmir yollarının rəsmi şəxsləri, dəmir yolu və liman administrasiyalarının rəhbərləri iştirak ediblər. Çıxış edən natiqlər Orta Dəhlizin inkişaf etdirilməsindən, ölkələr arasında iqtisadi ticarət əlaqələrinin inkişafında BTQ-nin rolundan danışıblar.

### 5 mərhələli planı

Qeyd edək ki, cari il mayın 18-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili tərəfindən Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalanıb. Bu sənədlə BTQ dəmir yolu layihəsi üzrə modernləşdirmə işlərinin tamamlanması və yekun qəbulu təsdiq edilib.

5 mərhələdən ibarət layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edib. Layihə çərçivəsində 30,3 km uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 km uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib. Görülmüş işlər nəticəsində BTQ-nin illik yük ötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb, bu xətt Çin və Mərkəzi Asiyadan Avropaya doğru daha funksional quru marşrutlardan birinə çevrilib.

**Azərbaycanın regional tranzit dəhlizlərindəki rolunun artması rəqəmsallaşma ilə bağlı tədbirlərin də həyata keçirilməsini zəruri edir. Bu ssenariyə əsasən, BTQ-nin modernləşdirilməsinin məqsədi bu nəqliyyat qovşağını Orta Dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirmək və dəhlizin rəqabət qabiliyyətini artırmaqdır**

Azərbaycan mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşir və regionun əlaqələndirilməsində əsas rol oynayır. Nəqliyyat infrastrukturlarını müasirləşdirən ölkəmiz qlobal dəhlizlərin ən mühüm tərkib hissəsinə çevrilən dəmir yolu nəqliyyatını da modernləşdirməklə tərəfdaş ölkələrlə sıx platforma qurmaqdadır. Eləcə də, müasir dövrdə nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyaların tətbiqi və infrastrukturun elektronlaşdırılması qarşıda duran əsas çağırışlardandır.




### Orta Dəhlizin əsas arteriyalarından biri

Bu baxımdan Azərbaycanın regional tranzit dəhlizlərindəki rolunun artması rəqəmsallaşma ilə bağlı tədbirlərin də həyata keçirilməsini zəruri edir. Bu ssenariyə əsasən, BTQ-nin modernləşdirilməsinin məqsədi bu nəqliyyat qovşağını Orta Dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirmək və dəhlizin rəqabət qabiliyyətini artırmaqdır.

Qeyd edək ki, BTQ-nin imkanlarının artırılması məqsədilə 2024-cü ildə “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb. Dəmir yolunun Gürcüstan ərazisində həyata keçirilən modernizasiyası beş əsas mərhələni əhatə edib: Marabda-Tetriskaro, Tetriskaro-Tsalka, Tsalka-Axalkalaki, Axalkalaki-Kartsaxi və Axalkalaki kompleksi. 5 mərhələdən ibarət olan layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edir. Layihə çərçivəsində 30,3 kilometr uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 kilometr uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib. Layihə mürəkkəb coğrafi relyefdə, bəzi ərazilərdə dəniz səviyyəsindən 2400 metr yüksəklikdə və sərt iqlim şəraitində icra olunub. Layihədə uzunmüddətli səmərəliliyi və etibarlılığı təmin etmək üçün qabaqcıl texnologiyalar və müasir Avropa istehsalı avadanlıqlar istifadə edilib. Layihənin Gürcüstan seqmentində tamamlanan modernləşdirmə işlərindən sonra dəmir yolunun illik yükgötürmə qabiliyyəti 1 milyon tonu ötüb.

ADY layihənin Azərbaycan tərəfində - Bakı-Böyük Kəsik sahəsində də əsaslı təmir işləri həyata keçirib, enerji sistemini yeniləyib. Ötən il Böyük Kəsikdən Hacıqabul sahəsinə qədər dəyişən cərəyan sistemi tətbiq olunub, rabitə və işarəvermə sistemləri yenidən qurulub. Yenilənmiş BTQ xətti üzrə ilk yük qatarı 2024-cü il mayın 20-də Abşeron Logistika Mərkəzindən yola düşüb və 20 konteyner yükü Bakıdan Qarsa çatdırılıb. Bu, BTQ xəttinin regional yükdaşımalarda yenidən aktiv rol oynadığını nümayiş etdirib.

Ümumilikdə, görülən işlər nəticəsində Avrasiya nəqliyyat şəbəkəsinin əsas elementi kimi BTQ-nin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Dəmir yolunun xətti regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rolu əhəmiyyətli dərəcədə artıb.

**BTQ sadəcə Bakı, Tbilisi və Qarsı birləşdirən dəmir yolu deyil, modernləşdirilmiş xətt Orta Dəhlizin yükdaşıma qabiliyyətini artıracaq, Şərq-Qərb ticarət axınlarını sürətləndirəcək, Azərbaycanı regional tranzit qovşağı kimi gücləndirərək Avrasiya logistika sistemində yeni balans yaradacaq**

### Zəngəzur dəhlizinin yeni qolu - Qars-İğdır-Naxçıvan dəmir yolu xətti

Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan digər yeni xətt Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu layihəsidir ki,  bu istiqamətdə də mühəndis-kommunikasiya əlaqəndirilməsi işləri davam etdirilir. Orta Dəhlizin yeni şaxəsi olan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi 223,9 kilometr uzunluğunda yüksək standartlı dəmir yolu xəttini əhatə edir. Saatda 120-160 kilometr sürət üçün nəzərdə tutulan layihə 5 ilə tamamlanacaq. Uzunluğu 638 metr olan 10 körpü, 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi muxtar respublikanın nəqliyyat və iqtisadi potensialını artıracaq, eyni zamanda, beynəlxalq ticarətə yeni imkanlar yaradacaq. Zəngəzur dəhlizinin tərkib hissəsi olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti təkcə Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmir. Bu layihələr daha qlobal xarakter daşıyır və Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir. Həmçinin dəmir yolu xəttinin Bakı-Tbilisi-Qars layihəsi ilə inteqrasiyası nəzərdə tutulur.

Göründüyü kimi, BTQ sadəcə Bakı, Tbilisi və Qarsı birləşdirən dəmir yolu deyil, modernləşdirilmiş xətt Orta Dəhlizin yükdaşıma qabiliyyətini artıracaq, Şərq-Qərb ticarət axınlarını sürətləndirəcək, Azərbaycanı regional tranzit qovşağı kimi gücləndirərək Avrasiya logistika sistemində yeni balans yaradacaq.

Beləliklə, modernləşdirilən Bakı-Tbilisi-Qars dəmir yolu hazırda Orta Dəhlizin əsas komponenti olaraq Çin, Mərkəzi Asiya və Avropa arasında yükdaşımaların Qərb və Şərq istiqamətində səmərəli həyata keçirilməsini tam təmin edir. Yeni strateji plan və “BTKI Railways”

MMC-nin fəaliyyəti sayəsndə BTQ-nin yükdaşıma imkanları daha da artmaqla,  Çin və Mərkəzi Asiyadan Avropaya uzanan ən qısa və çevik quru marşrutlardan biri kimi funksionallığı daha da güclənəcək, bölgədə ən etibarlı nəqliyyat arteriyasına çevriləcək.

*E.CƏFƏRLİ*

# Deputat Elnarə Akimovanın təşəbbüsü ilə alimlər və yazarlar məktəblilərlə görüşdü

Mayın 3-də Sumqayıt şəhəri Hacı Zeynalabdin qəsəbəsində yerləşən 6 saylı tam orta məktəbdə Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Məktəb, elm və ədəbiyyat" layihəsinin növbəti görüşü keçirildi. Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimovanın ideya müəllifliyi və təşəbbüsü ilə həyata keçirilən tədbirin məqsədi məktəblərdə mütaliənin təşviqi, uşaqların yazıçılar və alimlərlə birbaşa ünsiyyətinin qurulması, şagirdlərimizə oxu mədəniyyətinin aşılanmasıdır.






Tədbir Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması və Dövlət Himninin səsləndirilməsi ilə başladı.

Məktəblilərin rəsm əsərlərindən ibarət sərgi qonaqlarda xoş təəssürat yaratdı. Sərgi ilə tanışlıq zamanı şagirdlərin yaradıcılıq potensialı və incəsənətə marağı xüsusi diqqət çəkdi.

Daha sonra alimlər və yazarlar məktəb kitabxanasına kitablar hədiyyə etdilər. Bu təşəbbüs layihənin əsas məqsədinə - məktəblərdə mütaliə mühitinin gücləndirilməsinə xidmət edən praktik addım kimi dəyərləndirildi.

Görüşdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin deputatları Elnarə Akimova və Mehriban Vəliyeva, Mədəniyyət Nazirliyinin Azərbaycan dili və ədəbiyyatı siyasəti şöbəsinin müdiri Vasif Qurbanzadə, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının Hacı Zeynalabdin qəsəbəsi üzrə nümayəndəsi Lalə Hacıyeva, Sumqayıt şəhər təhsil sektorunun müdiri İman Ağayev, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Uşaq ədəbiyyatı" şöbəsinin əməkdaşları, dəyərli uşaq yazarlarımız Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Elsevər, Əziz Sultan, şairlərdən İbrahim İlyaslı və Elvin Əlizadə iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan Sumqayıt şəhər təhsil sektorunun müdiri İman Ağayev belə görüşlərin uşaqların mütaliəyə marağının artırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı. O qeyd etdi ki, kitabın məktəb həyatında yenidən əsas mövqeyə qayıtması üçün müəllimlərin, valideynlərin və ictimaiyyətin birgə səylərinə ehtiyac var.

Daha sonra söz alan Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxışında uşaqlıq xatirələrinə qayıdaraq ilk dəfə dörd yaşında "Göyərçin" jurnalını oxuduğunu və həmin jurnalın onda mütaliəyə böyük maraq yaratdığını bildirdi. Bu səmimi etiraf məktəblilər tərəfindən maraqla qarşılandı.

İsa Həbibbəyli daha sonra Azərbaycan maarifçilik tarixinin mühüm mərhələlərindən danışaraq XIX əsrin ikinci yarısını milli düşüncənin formalaşdığı, təhsilin və mədəniyyətin inkişaf etdiyi dövr kimi xarakterizə etdi.

Akademik Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə və digər maarifçi ziyalıların Azərbaycan cəmiyyətinin inkişafındakı xidmətlərini xüsusi vurğuladı. O qeyd etdi ki, bu şəxsiyyətlərin irsi bu gün də məktəb, elm və ədəbiyyat sahəsində aparılan işlərin ideya əsaslarından biri olaraq qalır.

Çıxış zamanı Ümummilli Lider Heydər Əliyevin elm və təhsilin inkişafına göstərdiyi diqqətdən, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasətin uğurla davam etdirilməsindən də bəhs edildi.

Layihənin rəhbəri, Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova çıxışında "Məktəb, elm və ədəbiyyat" layihəsinin yaranma məqsədindən və onun əsas ideya xəttindən geniş bəhs etdi. O bildirdi ki, layihənin başlıca hədəfi region məktəblərində mütaliə mühitini gücləndirmək, uşaqları yazıçı və alimlərlə birbaşa ünsiyyətə gətirmək və kitabı yenidən gündəlik həyatın vacib bir hissəsinə çevirməkdir.

Elnarə Akimova qeyd etdi ki, müasir dövrdə informasiya bolluğu içində böyüyən uşaqlar üçün kitab oxuma vərdişinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır: "Biz istəyirik ki, uşaq kitabı təkcə dərs vəsaiti kimi deyil, həyatının bir parçası kimi qəbul etsin. Kitab oxuyan uşaq düşünən uşaqdır, düşünən uşaq isə sabahın məsuliyyətli vətəndaşıdır. Bu baxımdan regionlarda mütaliə mühitinin gücləndirilməsi bizim üçün strateji əhəmiyyət daşıyır."

Deputat vurğuladı ki, layihə təkcə bir tədbir silsiləsi deyil, eyni zamanda davamlı bir maarifçilik hərəkatıdır. Onun sözlərinə görə, məktəb, yazıçı və elmin bir platformada birləşməsi uşaqların dünyagörüşünün formalaşmasına, onların ədəbiyyata marağının artmasına ciddi təsir göstərir: "Biz bu görüşləri formal bir tədbir kimi yox, canlı ünsiyyət, fikir mübadiləsi və ilham mənbəyi kimi görürük. Uşaqların gözündəki maraq və sevgi bizim üçün ən böyük nəticədir."

Elnarə Akimova çıxışında həmçinin layihənin həyata keçirilməsinə dəstək göstərən Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayevaya, məktəb rəhbərliyinə, pedaqoji kollektivə, Lalə Hacıyevaya, tərəfdaş qurumlara, moderator, Sumqayıt şəhər 35 saylı məktəbin müəllimi Nigar Vəliyevaya və tədbirdə iştirak edən bütün qonaqlara təşəkkürünü ifadə etdi.

Milli Məclisin deputatı Mehriban Vəliyeva çıxışında tədbirdə iştirak edən məktəblilərin fəallığını yüksək qiymətləndirdi. O qeyd etdi ki, uşaqların gözlərində kitaba olan marağı və sevinc hissini görmək son dərəcə təsirlidir: "Bu gün burada səslənən şeirlər, uşaqların hazırladığı proqram göstərdi ki, onlar bu görüşü səbirsizliklə gözləyiblər və böyük həvəslə hazırlaşıblar."

Mədəniyyət Nazirliyinin Azərbaycan dili və ədəbiyyatı siyasəti şöbəsinin müdiri Vasif Qurbanzadə isə çkitabın və mütaliənin təbliğinin dövlətin mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu bildirdi. O, nazirliyin bu kimi layihələrə dəstəyinin davam edəcəyini vurğuladı və Elnarə Akimovanın təşəbbüsünün əhəmiyyətini xüsusi qeyd etdi.

Rəsmi çıxışlardan sonra söz yazarların oldu. Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Elsevər, Əziz Sultan, İbrahim İlyaslı və Elvin Əlizadə uşaqlarla səmimi söhbət apararaq oxumağın, yazmağın və mütaliənin insan həyatındakı rolundan danışdılar.

Rafiq Yusifoğlunun səsləndirdiyi "Şar və balaca qız" şeiri zalda duyğusal anlar yaşatdı. Elvin Əlizadənin Sumqayıta həsr etdiyi şeir isə iştirakçıların böyük rəğbəti ilə qarşılandı.

Məktəblilər tanınmış yazarların şeirlərini səsləndirdilər, mahnılar oxudular, rəqs nömrələri nümayiş etdirdilər. Uşaqların hazırladığı proqram tədbirin ən canlı hissələrindən biri kimi yadda qaldı.

Tədbirin sonunda məktəbin direktoru Qönçə Səftərova çıxış edərək qonaqlara və təşkilatçılara minnətdarlığını bildirdi. O qeyd etdi ki, belə görüşlər məktəblilərin dünyagörüşünün formalaşmasında, onların elmə və ədəbiyyata marağının artırılmasında mühüm rol oynayır.

Beləliklə, Sumqayıtda keçirilən növbəti görüş bir daha göstərdi ki, məktəb, elm və ədəbiyyatın vəhdəti təkcə maarifçilik missiyası daşımır, həm də uşaqlarda oxumaq, düşünmək və öyrənmək həvəsini gücləndirən mühüm ictimai platformadır. Layihənin əsas uğuru da məhz budur: kitabı yenidən uşaqların gündəminə gətirmək və onu həyatın vacib dəyərlərindən birinə çevirmək!

Çünki kitabın olduğu yerdə düşüncə var. Düşüncənin olduğu yerdə isə inkişaf və Azərbaycanın sabahı üçün əminlik!

Yaşasın kitab və kitaba sevgini yaşatmaq üçün qaranlıqda bir şam olmağı bacaran insanlar, əməllər və ideallar!

# Avropanın miqrantlardan xilas yolu - yeni qaydalar və mexanizmlər

Son illər Qərb ölkələri miqrasiya siyasətini xeyli sərtləşdirib. Məsələn, ABŞ hökuməti Donald Trampın 2025-ci il yanvarın 20-də prezident vəzifəsinə başlamasından bəri 900 mindən çox qanunsuz miqrantı ölkədən çıxarıb. Bu barədə ABŞ İmmiqrasiya və Gömrük Mühafizəsi Xidmətinin komissarı vəzifəsini icra edən Devid Venturella "Breitbart News"a müsahibəsində bildirib. Onun sözlərinə görə, Daxili Təhlükəsizlik Departamenti qanunsuz miqrantların deportasiyasını sürətləndirmək üçün bütün mümkün mexanizmlərdən istifadə edir.

Tramp isə daha əvvəl ABŞ-a milyonlarla şəxsin qanunsuz daxil olduğunu iddia edib. O, seçki kampaniyası dövründə və prezidentliyinin ilk aylarında daha sərt immiqrasiya siyasətinin tərəfdarı olduğunu vurğulayaraq, ABŞ tarixində qanunsuz immiqrantlara qarşı ən genişmiqyaslı deportasiya əməliyyatını həyata keçirəcəyinə söz vermişdi.

## Polşadan Almaniyaya gedən ukraynalı qaçqınların sayı artır

Avropa İttifaqı da miqrasiya siyasətini sərtləşdirməkdə davam edir. Təxminən 10-15 il öncə qitəyə Yaxın Şərq və Afrika ölkələrindən xeyli sayda miqrant daxil olub. Bütün bunlar sözügedən regionlarda baş verən münaqişələr, o cümlədən "ərəb baharı" ilə bağlıdır. Çünki həmin hadisələrdən sonra bir sıra bölgələrdə qeyri-sabitlik, xaos davam edir. Ona görə də, əhali Avropa ölkələrinə miqrasiya etməyə üstünlük verib.

Digər tərəfdən, 2022-ci ilin fevralında başlamış Rusiya - Ukrayna müharibəsi də bir neçə milyon ukraynalının Avropa ölkələrinə miqrasiya etməsinə səbəb oldu. Artıq bir sıra Avropa ölkələri ukraynalı qaçqınların yaratdıqları sosial problemləri etiraf edərək onlara verilən müavinətləri azaldıblar. Bir neçə gün öncə Almaniya hakimiyyəti də qonşu Polşanın müavinətlərini əhəmiyyətli dərəcədə azaltdıqdan sonra ölkəyə Ukrayna qaçqınlarının axınının artmasından narahatlığını ifadə edib. Bu barədə "Bild" qəzeti Almaniya təhlükəsizlik orqanlarının məxfi hesabatına istinadla məlumat yayıb. Məlumata görə, artıq daha çox ukraynalı Almaniyaya köçə bilər. Bu, digər amillərlə yanaşı, qanunsuz miqrantları daşıyan qaçaqmalçıların artan fəaliyyəti ilə də bağlıdır. Hesabatda deyilir ki, Almaniyanın şərqində ukraynalılar artıq sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilən insanların əhəmiyyətli bir qrupunu təşkil edir. Alman təhlükəsizlik orqanlarının məlumatına görə, bunlar əsasən hərbi yaşda olan kişilərlə bağlıdır. Nəşr bildirir ki, 2022-ci ilin fevral ayından bəri təxminən 1,35 milyon ukraynalı Almaniyada qorunma alıb.



## Aİ üçüncü ölkələrdə deportasiya mərkəzləri yaradacaq

Qeyd edək ki, son illər Avropa İttifaqına (Aİ) qeyri-qanuni miqrasiya axınında və sığınacaq müraciətlərinin sayında azalma müşahidə olunur. Statistikaya əsasən, 2025-ci ildə Aİ-də ölkəni tərk etməli olan miqrantların təxminən 28 faizi faktiki olaraq geri qaytarılıb. Avropa İttifaqı deportasiyaların sayını artırmaq məqsədilə üçüncü ölkələrdə deportasiya mərkəzlərinin yaradılması və sığınacaq qaydalarının sərtləşdirilməsi barədə razılığa gəlib. Razılaşma Avropa Parlamenti və üzv dövlətlərin hökumətlərinin nümayəndələri arasında aparılan müzakirələr nəticəsində əldə olunub. Qaydalar əsasən sığınacaq müraciəti rədd edilən və Aİ ərazisini könüllü tərk etməyən şəxslərin gələcəkdə İttifaq məkanından kənarda yerləşən xüsusi mərkəzlərə göndərilməsini nəzərdə tutur. Həmin mərkəzlərdə onların mənşə ölkələrinə deportasiyası təşkil olunacaq. Razılaşmaya görə, müşayiətsiz azyaşlılar bu tədbirdən kənarda saxlanılacaq. Lakin uşaqlı ailələr üçün istisna olmayacaq. Deportasiya mərkəzlərinə ev sahibliyi edən tərəfdaş ölkələrə maliyyə dəstəyi və ya viza sahəsində güzəştlər təqdim edilə bilər.

Yeni qaydalar deportasiya qərarlarının icrasından yayınan şəxslərə qarşı sanksiyaların da sərtləşdirilməsini nəzərdə tutur. Belə hallarda sosial ödənişlərin dayandırılması, səyahət sənədlərinin müsadirəsi və deportasiya məqsədilə saxlanılma tədbirləri tətbiq oluna bilər. Saxlanma müddəti adi hallarda 24 aya, xüsusi hallarda isə 30 aya qədər uzadıla bilər. Məlumata görə, Almaniya da daxil olmaqla bir sıra Aİ ölkəsi artıq potensial tərəfdaş dövlətlərlə danışıqlara başlayıb. Deportasiya mərkəzlərinin hansı ölkələrdə yaradılacağı hələlik açıqlanmayıb. Yeni qaydaların qüvvəyə minməsi üçün sənədin Avropa Parlamenti və Aİ Şurası tərəfindən təsdiqlənməsi tələb olunur. Bu prosedur isə adətən formal xarakter daşıyır.

Məsələ ilə bağlı qurumun mətbuat üçün yaydığı açıqlamada Kipr Respublikasının miqrasiya üzrə nazir müavini Nikolas A. İoannidisə istinadən vurğulanıb ki, yeni reqlament mühacirlərin geri qaytarılması prosesini sürətləndirəcək, habelə Aİ-də qanuni qalma hüququ olmayan, geri qaytarılan şəxslərin sayı artacaq: "Bu prosesin qısa müddətdə tamamlanması bütöv miqrasiya sistemi çərçivəsində miqrantların effektiv geri qaytarılması haqqında Aİ qaydalar toplusunun yaradılmasına sadiqliyi əks etdirir". Deportasiya mərkəzlərinin yaradılmasını, miqrasiya qanunvericiliyinin sərtləşdirilməsini bir sıra İttifaq ölkəsi, o cümlədən Almaniya, Avstriya, Danimarka da dəstəkləyib. Məlumata görə, Aİ-nin bu istiqamətdə gələcək tərəfdaşları bir sıra MDB ölkələri, o cümlədən Ruanda və Uqanda ola bilər.

Məlumata görə, üçüncü ölkələrdəki deportasiya mərkəzləri ilə bağlı danışıqlar son mərhələdədir. Fransa və Almaniya, həmçinin Avropa Parlamentinin nümayəndələri onların tez bir zamanda fəaliyyətə başlamasını tələb ediblər. Ancaq Aİ-nin başqa ölkələri öz qanunlarını yeni normalara uyğunlaşdırmaq üçün bir illik möhlət verilməsinə nail olublar. Yeni qaydalara əsasən, Aİ ərazisini tərk etməkdən imtina edən miqrantlar həbs ediləcək. Bildirilib ki, qanunsuz miqrasiyaya qarşı mübarizə üçün yeni mümkün tədbirlər arasında müavinət ödənişlərinin azaldılması, yaxud tamamilə dayandırılması da var.

## Qeyri-hökumət təşkilatları yeni reqlamentə etiraz edir

Nəzərə alaq ki, 2026-cı ilin martında Avropa İttifaqının miqrasiya siyasətini əhəmiyyətli dərəcədə sərtləşdirən təşəbbüsü Avropa Parlamentinin vətəndaş azadlıqları, ədalət və daxili işlər komitəsi təsdiqləyib. Mayın sonunda isə üçüncü ölkələrdə deportasiya mərkəzlərinin yaradılmasını Avropa Parlamenti və Aİ ölkələrinin nümayəndələri razılaşdırıblar.

Qeyri-hökumət təşkilatları isə yeni reqlamentə etiraz edir. Onlar insan hüquqlarının sistematik pozulacağından ehtiyat edirlər. Çünki belə tədbirlər miqrantları heç bir əlaqəsi olmadıqları ölkələrə göndərməyə imkan verir. Son illər Avropa İttifaqının orqanlarında miqrasiya ilə bağlı fikir ayrılıqları mövcud idi. Xüsusi ilə Afrikanın şimalı, Yaxın Şərqdə, Əfqanıstanda və başqa münaqişəli bölgələrdə baş verən hadisələr nəticəsində meydana çıxan miqrant çoxluğu Aİ üçün müəyyən mənada gözlənilməz olub. Məsələn, Suriya və İraqda baş vermiş hadisələr fonunda Türkiyə üç milyondan çox suriyalı, iraqlı miqranta sığınacaq verməklə İttifaqı mühacirə böhranın nəticəsində yaranacaq mümkün humanitar böhrandan xilas etmişdi. Yəni, Türkiyə həmin dövrdə Avropa İttifaqı üçün miqrantların axının qarşısının alınmasında mühüm rol oynamışdı.

Həmin hadisələrdən sonra Aİ miqrasiya siyasətində dəyişikliklər etməyə başladı. Miqrantları araşdırmağı, onları tədqiq etməyi sərtləşdirdi. Bir sıra terror qruplarının Avropa İttifaqı ölkələrində sığınacaq alması, yaxud qeyri-hökumət təşkilatları adı altında gizlənməsi faktları da aşkarlanıb. Bu baxımdan onun miqrasiya siyasəti xarici sərhədlərin nəzarəti, qanuni əmək miqrasiyasının tənzimlənməsi və sığınacaq istəyənlərin bölüşdürülməsinə yönəlmiş ümumavropa normalar və ikisəviyyəli tədbirlər kompleksi formalaşdırılıb. Hədəf ilk növbədə Şengen zonasında təhlükəsizliyin təmin edilməsidir.

*Nardar BAYRAMLI*

# Parisin yeni “nüvə oyunu”

## Avropa ölkələri nədən narahatdır?

Fransanın ölkə hüdudlarından kənarda nüvə silahı yerləşdirməklə bağlı təşəbbüsü Avropa İttifaqı (Aİ) ölkələri arasında fərqli reaksiyalara səbəb olub. “Euractiv” portalının məlumatına görə, Fransanın təklifi bir sıra Avropa ölkələrinin marağına səbəb olsa da, onun ABŞ-ın nüvə təminatına hansı əlavə üstünlüklər verəcəyi hələ də aydın deyil. Prezident Emmanuel Makronun nüvə silahı daşımaq qabiliyyətinə malik “Rafale” təyyarələrinin tərəfdaş ölkələrin bazalarında yerləşdirmək ideyasına Almaniya, Niderland, Belçika, Yunanıstan, Polşa, İsveç və Danimarka maraq göstərib. Norveçin də layihə ilə maraqlandığı bildirilir. Lakin ABŞ-ın “nüvə çətirinə” üstünlük verən bəzi ölkələr, o cümlədən İtaliya və Baltikyanı dövlətlər təşəbbüsü dəstəkləməyib.

### Fransa ABŞ-ın “nüvə çətiri”ni əvəz edə bilərmi?

Xatırladaq ki, bir müddət öncə Fransa Prezidenti Emmanuel Makron tam məxfi hərbi bazaya baş çəkib, Fransa və Avropa təhlükəsizliyi üçün yenilənmiş nüvə strategiyasından bəhs edib. Avropa İttifaqının yeganə nüvə dövləti olan Fransa indiyədək ABŞ tərəfindən Avropaya təqdim edilən “nüvə çətiri”ni əvəzləmək potensialına malik olduğunu artıq bəyan edib. Hələ mart ayında Almaniya Kansleri Fridrix Merts bəyan edib ki, bu məsələ ilə bağlı Makronla danışıqlar aparıb və Fransa nüvə bombalarının daşınması üçün Almaniya Hərbi Hava Qüvvələrinin təyyarələrindən istifadənin mümkünlüyü barədə açıq şəkildə fikir bildirib. Makronun özü hələ sonuncu Münxen Təhlükəsizlik Konfransında çıxış edərkən nüvə çəkindirmə doktrinasının yenidən formalaşdırılması zərurətini bəyan edərək və milli təhlükəsizlik proqramının bütün Avropaya uyğunlaşdırılması məsələsini müzakirə etdiyini vurğulamışdı.

İddiaya görə, Parisin nüvə başlıqları ilə bağlı mövqeyi Avropa paytaxtlarında və Brüsseldə diqqətlə təhlil edilir. Bu, həm Ukraynada müharibə başlayandan bəri Rusiyanın dəfələrlə nüvə silahı tətbiq etmək hədələri, həm transatlantik münasibətlərin davamlılığına olan inamsızlıq, həm də Yaxın Şərqdəki son hadisələrlə əlaqədardır. Nəzərə alaq ki, Fransanın nüvə potensialı ABŞ və Rusiya ilə müqayisədə xeyli məhduddur. Bu səbəbdən Paris nüvə silahı imkanlarının effektivliyini artırmaq üçün qabaqcıl aviabazalara və uyğun uçuş marşrutlarına ehtiyac duyur.

### Rusiya təhdid hesab edir

Parisin Avropa ölkələri ərazisində nüvə başlıqlarını yerləşdirmək istəyi Rusiya tərəfindən təhdid kimi qəbul olunur. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu bildirib ki, Moskva Fransa Prezidenti Emmanuel Makronun Avropada fransız nüvə silahlarının yayılması ilə bağlı sözlərini ciddi qəbul edir: “Əksər ekspertlər Fransanın Avropa üzərində nüvə çətirindən danışılmasının onun əhəmiyyətini vurğulamaq cəhdindən başqa bir şey olmadığı ilə razılaşsalar da, biz Fransa prezidentinin bəyanatını çox ciddi qəbul edirik. Nüvə dövlətinin liderinin silah nümayiş etdirməsi faktı bütün dünya ictimaiyyəti üçün birbaşa təhlükədir. Bu, həmçinin Fransanın Strateji Silahların Azaldılması Müqaviləsi iştirakçıları klubuna üzvlüyü kontekstində xüsusi əhəmiyyət kəsb edir”.

Şoyqu deyib ki, Fransa həqiqətən də nüvə arsenalına malikdir və BMT-nin məlumatına görə, onun sayı təxminən 290 döyüş başlığıdır. Bundan əlavə, Parisin sərəncamında nüvə başlıqları ilə silahlanmış səsdən sürətli qanadlı raketlərlə taktiki aviasiya baxımından nüvə triadasının unikal elementi var. Rusiya Təhlükəsizlik Şurasının katibi hesab edir ki, Makron yenidən populist şüarlara əl atır, Avropa İttifaqı daxilində Rusiya əleyhinə ritorikasından maksimum siyasi dividendlər çıxarmağa çalışır: “Onun yürütdüyü daxili siyasət nəticəsində artıq bir sıra sosial-iqtisadi, siyasi, parlament və hökumət böhranlarına səbəb olduğunu görürük. Fransa prezidentinin ölkə daxilində reytinqi durmadan aşağı düşür - sosial sorğulara qatılan respondentlərin yalnız 21 faizi onun hərəkətlərini bəyənir”.



Əlbəttə, Parisin bu yanaşması Avropa məkanında hegemonluğunun güclənməsinə də xidmət edir. Təbii ki, bu vəziyyət ABŞ-ı qane etmir. Çünki Vaşinqton Avropa ölkələrini öz təsiri altında saxlamağa maraqlıdır. Yeri gəlmişkən, “Financial Times” qəzetinin verdiyi məlumata görə, ABŞ administrasiyası NATO-ya üzv olan Avropa dövlətlərində əlavə nüvə silahlarının yerləşdirilməsi ehtimalını müzakirə edir. Qəzetin dərc etdiyi materialda müzakirələr barədə məlumatlı üç rəsmi şəxsə istinadla qeyd olunub: “ABŞ rəsmiləri nüvə silahına malik bombardmançı təyyarələrə ev sahibliyi edən mövcud altı ölkədən kənarda əlavə yerləşdirmələrə açıq olduqlarını bildiriblər”.

### Vaşinqton Parisin mövqeyindən narazıdır

Qəzet yazır ki, bu addım nüvə zərbələri endirə bilən ABŞ-ın ikiqat qabiliyyətli təyyarələrinin (DCA) daha çox ölkəni əhatə etməsini nəzərdə tutur. Məqalədə bildirilir ki, NATO-nun şərq cinahında yerləşən dövlətlər, o cümlədən Polşa və Baltikyanı ölkələr potensial olaraq DCA bazalarına ev sahibliyi etməkdə maraqlıdır. Əvvəllər isə ABŞ Prezidenti Donald Tramp və onun köməkçiləri Avropa müttəfiqlərini hərbi sahəyə yetərincə maliyyə vəsaiti ayırmadıqlarına və özlərini müdafiə etmək üçün təkcə ABŞ-a güvəndiklərinə görə dəfələrlə tənqid ediblər.

Polşanın milli müdafiə naziri Vladislav Kosiniak-Kamış da NATO-nun Nüvə Paylaşımı proqramının mümkün genişləndirilməsi ilə bağlı məsələləri müzakirə etdiyini təsdiqləyib. Nazir qeyd edib ki, nüvə mövzusu alyans ölkələrinin müdafiə nazirlərinin 18 iyunda Brüsseldə, NATO-nun mənzil-qərargahında keçiriləcək görüşünün gündəliyinə daxil ediləcək. Lakin Polşa Müdafiə Nazirliyinin rəhbəri müzakirələrin təfərrüatlarını açıqlamaqdan imtina edərək, məsələni həssas adlandırıb və rəsmi açıqlamaların yalnız NATO səviyyəsində verilə biləcəyini vurğulayıb.

Litva hakimiyyəti də ölkə ərazisində müttəfiqlərin nüvə silahlarının yerləşdirilməsinə icazə verən mümkün konstitusiya dəyişikliyi ilə bağlı müzakirənin başlanmasını dəstəkləyib. Litva Seyminin sədri Yuozas Olekas bildirib ki, ölkə mövcud geosiyasi vəziyyət fonunda konstitusiya məhdudiyyətlərinə yenidən baxmalıdır. Konstitusiyanın 137-ci maddəsi hazırda Litva ərazisində kütləvi qırğın silahlarının və xarici hərbi bazaların yerləşdirilməsini qadağan edir.

Prezident Gitanas Nauseda da müzakirənin başlanması ideyasını dəstəkləyib. Seymin Milli təhlükəsizlik və müdafiə komitəsinin sədri Rimantas Sinkyaviçyus bu məsələ ilə bağlı partiyalararası müzakirənin də başlanmasının tərəfdarı olduğunu deyib. Konstitusiyaya düzəlişlər etmək üçün Seym üzvlərindən azı 94-nün səsi tələb olunur.

### Dünyada nüvə silahlarına nəzarət sistemi zəifləyir

Məlumdur ki, hazırda ABŞ-ın nüvə arsenalı 2025-ci ilin məlumatlarına görə təxminən 5177 nüvə başlığından ibarətdir, bunlardan təxminən 1770 strateji başlıq yerləşdirilib. Rusiyanın arsenalı isə ümumilikdə təxminən 5459-5580 nüvə başlığından ibarətdir ki, bunların təxminən 1718 yerləşdirilmiş strateji başlığı var. Çin isə ən sürətlə artan arsenala sahib üçüncü ölkədir və onun nüvə arsenalı təxminən 600 başlıq səviyyəsində qiymətləndirilir, lakin yerləşdirilmiş strateji başlıqların sayı həddən çox aşağıdır. Bu rəqəmlər yalnız strateji silahları və əsas nüvə başlıqlarını əhatə edir. Taktiki nüvə silahları və ehtiyat başlıqlar adətən dövlətlər tərəfindən açıqlanmır və qismən təxmin edilir. Beləliklə, Çin gələcəkdə qlobal nüvə balansında daha aktiv rol oynamaq niyyətini nümayiş etdirir.

Bütün bunlarla yanaşı, regional nüvə güclərinin potensialı və yayılma riski də ciddi şəkildə artır. ABŞ və Rusiya arsenalını məhdudlaşdırmadığı təqdirdə, digər dövlətlər də nüvə silahına sahib olmağı təhlükəsizlik zəmanəti kimi görməyə başlaya bilər. İranın nüvə proqramı, Şimali Koreyanın davam edən raket sınaqları, Yaxın Şərqdə potensial nüvə silahlanması müzakirələri bu kontekstdə diqqət çəkir. Hətta bəzi NATO ölkələri və regional dövlətlər uzunmüddətli perspektivdə nüvə silahı əldə etməyi düşünə bilərlər. Bu da qlobal səviyyədə nüvə silahlarının yayılma riskini artırır və nüvə silahlarına nəzarət sistemini zəiflədir.

*N.BAYRAMLI*

# Dörd mərhələli həll...

## Hörmüz boğazının blokadası nə vaxtadək davam edəcək?

ABŞ-la İran arasında atəşkəs əldə edildikdən sonra tərəflər yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Əksinə, son günlər tərəflər arasında gərginlik artıb, qarşılıqlı raket hücumları baş verib. ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.



**Ən mürəkkəb mərhələ...**

Belə bir şəraitdə “Al-Hadath” telekanalı öz mənbələrinə istinadən məlumat yayıb ki, İran və ABŞ münaqişənin həlli üçün dörd mərhələdə həyata keçiriləcək müvəqqəti razılaşmanı təsdiqləməyə yaxındır. Bildirilir ki, Vaşinqton və Tehran arasında müvəqqəti razılaşmanın həyata keçirilməsində bir mərhələdən digərinə keçid hər mərhələdə nəzərdə tutulan “öhdəliklərin yerinə yetirilməsindən” sonra baş verəcək. Birinci mərhələ “mövcud atəşkəsin möhkəmləndirilməsi”, “bölgədə hər hansı bir eskalasiyanın və ya yeni cəbhələrin açılmasının qarşısının alınması” və birbaşa hərbi əməliyyatlardan çəkinməyi əhatə edir.

İkinci mərhələ dəniz təhlükəsizliyinə və Hörmüz boğazına yönəlib və dəniz blokadasının qaldırılmasını, dəniz yollarının və enerji boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün tədbirləri nəzərdə tutur. Mənbələrə görə, üçüncü mərhələ sanksiyaların məhdud şəkildə yumşaldılmasını və İranın xaricdəki aktivlərinin qismən azad olunmasını nəzərdə tutur. Son mərhələdə tərəflər uranın zənginləşdirilməsi səviyyələri və beynəlxalq monitorinq mexanizmləri daxil olmaqla, İranın nüvə dosyesini müzakirə etməyi planlaşdırırlar. Mənbələr onu da bildirir ki, bu mərhələ aylarla əlavə danışıqlar tələb edə bilər.

ABŞ Prezidenti Donald Tramp son açıqlamalarında İranla danışıqların “çox yaxşı” getdiyini deyib. Onun sözlərinə görə, proses uğurla davam edərsə, razılaşma həftəsonu baş verə bilər. “The Wall Street Journal” (WSJ) qəzetinin məlumatına görə, Donald Tramp öz ətrafındakılara yalnız Birləşmiş Ştatların hərbi qulluqçuları həlak olacağı təqdirdə, İranla mövcud atəşkəs rejimindən imtina etmək niyyətində olduğunu deyib. “Dövlət başçısı köməkçiləri ilə şəxsi söhbətlərində yalnız Tehranın Amerika hərbçilərinin ölümü ilə nəticələnən zərbə endirəcəyi halda, İranla atəşkəs məsələsinə yenidən baxmağa hazır olduğunu söyləyib”, - deyə nəşr ABŞ administrasiyasının məlumatlı nümayəndələrinin sözlərinə istinad edib. Qəzetin həmsöhbətləri xüsusi olaraq qeyd ediblər ki, tərəflər arasında davam edən “toqquşma”lara baxmayaraq, qüvvədə olan atəşkəs rejimi əvvəlki kimi qorunub saxlanılır.

WSJ, həmçinin diqqəti ona yönəldib ki, Trampın fəal döyüş əməliyyatlarına qayıtmaq istəməməsi onun Yaxın Şərqdə genişmiqyaslı münaqişənin qarşısını almaq naminə həftələr və hətta aylar ərzində gərginliyin cüzi alovlanmalarına dözməyə ehtimal olunan hazırlığından xəbər verir.

**Hörmüz boğazının blokadası dünya iqtisadiyyatına ciddi təsir edir**

Bütün bunların fonunda Hörmüz boğazının açılmaması dünya iqtisadiyyatı üçün ciddi problem olaraq qalır. Dünya İqtisadi Forumunun (WEF) yeni hesabatına görə, Yaxın Şərqdəki münaqişə və Hörmüz boğazında davam edən fasilələr qlobal iqtisadi perspektivlərin kəskin şəkildə pisləşməsinə səbəb olub. 2026-cı ilin əvvəlində hökm sürən ehtiyatlı nikbinlik İranla bağlı münaqişənin kəskinləşməsi fonunda artan narahatlığa yol açıb. WEF iqtisadçılarının təxminən 89 faizi qlobal iqtisadi artımın növbəti 12 ay ərzində zəifləyəcəyini, 21 faizi isə əhəmiyyətli dərəcədə pisləşəcəyini proqnozlaşdırır.

Xüsusi narahatlıq böhrandan əvvəl qlobal dəniz yük daşımalarının təxminən 10 faizini idarə edən Hörmüz boğazının bağlanması ilə bağlıdır. Hesabat müəllifləri vurğulayırlar ki, iqtisadçılar Hörmüz boğazının hazırkı bağlanma müddətini 2025-ci il tarif qarışıqlığının təsirlərindən qəti şəkildə yüksək qiymətləndirirlər. Əgər status dəyişməz qalarsa, qlobal iqtisadiyyata təsirin COVID-19 pandemiyası dövründə son dəfə müşahidə olunan səviyyələrə yaxınlaşacağı gözlənilir.



Regionun enerji infrastrukturuna vurulan zərbələr artıq neft, mayeləşdirilmiş təbii qaz və gübrələrin tədarükünü dayandırıb. Bu fonda may ayında “Brent” markalı xam neftin qiyməti müvəqqəti olaraq barel üçün 125 dolları keçib. Böhranın inflyasiyanı sürətləndirəcəyi və dünya miqyasında xərcləri artıracağı gözlənilir. Respondentlərin təxminən 94 faizi gələn il ərzində enerji və ərzaq qiymətlərinin artması ilə bağlı daha güclü inflyasiya təzyiqlərinin olacağını gözləyir. Böhranın əsas yükünü enerji və xammal sektorları daşıyır. Onlardan sonra müəyyən təchizat marşrutlarında ciddi fasilələrlə üzləşən logistika və nəqliyyat gəlir. Turizm, aviasiya və müdafiə sənayesi də ciddi təzyiq altındadır.

Hesabatda, həmçinin qlobal ərzaq bazarları üçün risklər vurğulanır. Münaqişədən əvvəl beynəlxalq gübrə ticarətinin 30 faizinə qədəri Hörmüz boğazından keçirdi. Kükürd, ammonyak və digər əsas komponentlərin tədarükündəki fasilələr artıq gübrə qiymətlərinin yüksəlməsinə səbəb olub. İlin ikinci yarısında bu, məhsuldarlığa mənfi təsir göstərə və ərzaq inflyasiyasını gücləndirə bilər.

**Regional proqnozlar qeyri-bərabərdir**

Nəzərə alaq ki, regional proqnozlar qeyri-bərabər olaraq qalır. Ən davamlı proqnozlar Hindistan, ABŞ və Çində müşahidə olunur, Avropa isə enerji şoku fonunda artan staqflyasiya riskləri ilə üzləşir. Proqnozların ən kəskin şəkildə pisləşməsi Yaxın Şərq və Şimali Afrikada qeydə alınıb, burada iqtisadçılar daha yavaş artım, zəif əmək bazarları və artan inflyasiya təzyiqləri proqnozlaşdırırlar. Mərkəzi Asiya nisbətən əlverişli perspektivləri qoruyub saxlamağa davam edir və respondentlərin təxminən dörddə üçü növbəti il ərzində orta və ya güclü iqtisadi artım gözləyir. Lakin inflyasiya regionun əsas risklərindən biri olaraq qalır.

İqtisadi mühitin pisləşməsinə baxmayaraq, süni intellekt optimizmin azsaylı mənbələrindən biri olaraq qalır. Hesabatda qeyd edilir: “Süni intellekt çətin iqtisadi perspektivdə parlaq bir nöqtə olaraq qalır və respondentlər informasiya texnologiyaları, rəqəmsal rabitə, maliyyə xidmətləri və təhsil sahələrində ən güclü irəliləyişləri gözləyirlər”. Respondentlərin 90 faizindən çoxu süni intellektdən istifadənin növbəti 12 ay ərzində genişlənməyə davam edəcəyini gözləyir. Eyni zamanda, süni intellektlə bağlı məhsuldarlıq artımları ilə bağlı gözləntilər daha da məhdudlaşıb. İqtisadçılar əvvəllər sürətli və geniş təsir gözləsələr də, indi bir çoxları texnologiyanın tam potensialının reallaşdırılmasının infrastruktura, işçi qüvvəsinin təliminə və biznes proseslərinin modernləşdirilməsinə daha çox vaxt və əlavə investisiya tələb edəcəyinə inanırlar.

Geosiyasi qeyri-müəyyənliyin artması fonunda çoxmillətli şirkətlər də strategiyalarını yenidən qiymətləndirirlər. ABŞ, Hindistan və Cənub-Şərqi Asiya növbəti 12 ay ərzində biznes üçün ən cəlbedici istiqamətlər kimi müəyyən edilib. Avropa tənzimləyici sabitlikdən və güclü istehlakçı alıcılıq qabiliyyətindən faydalanmağa davam edir, Çinin cəlbediciliyi isə gərgin rəqabət və aşağı mənfəət marjaları ilə məhdudlaşır. Hesabatda qlobal iqtisadiyyatın artan qeyri-müəyyənlik dövrünə qədəm qoyduğu və geosiyasi münaqişələrin, inflyasiya təzyiqlərinin və təchizat zəncirlərinin yenidən qurulmasının bir neçə ay əvvəl gözləniləndən daha çox iqtisadi artıma təsir göstərəcəyi qənaətinə gəlinir.

*N.BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Güllələnən bədən, susmayan söz!



## Mikayıl Müşfiq azad ruhun şairi idi...

Onun adı çəkiləndə insanların yaddaşında ilk növbədə azad ruhlu, duyğulu, səmimi və istedadlı bir şair canlanır. Yaradıcılığı təkcə poeziya nümunəsi deyil, həm də insanın həyata, sevgiyə və gözəlliyə münasibətinin poetik ifadəsidir. Müşfiqin yaradıcılığında diqqəti cəlb edən əsas cəhətlərdən biri onun həyata bağlılığı, yaşamaq eşqi və gələcəyə nikbin baxışıdır. Çünki həyatın ən sadə anlarında belə böyük mənalar tapmağı bacarır, təbiətin gözəlliyini, insan hisslərinin zənginliyini poetik sözün gücü ilə oxucuya çatdırırdı. Məhz buna görə onun şeirləri yalnız oxunmur, həm də hiss edilir, yaşanır və yaddaşlarda qalır.

Mikayıl Müşfiq təkcə öz dövrünün deyil, bütün zamanların şairidir. Çünki onun misralarında əks olunan həyat eşqi, insan sevgisi, azadlıq duyğusu və gələcəyə sonsuz inam bu gün də oxucuların qəlbində eyni qüvvə ilə yaşayır. Zaman keçdikcə köhnəlmək əvəzinə, daha da aktuallaşır və yeni nəsillərin mənəvi dünyasını zənginləşdirir.

Bu gün şairin anadan olmasından 118 il ötür. Əslən Xızı rayonundan olan Mikayıl Müşfiq ibtidai təhsilini inqilabdan əvvəl rus-tatar məktəbində alıb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Bakı darülmüəllimində və 12 saylı II dərəcəli məktəbdə oxuyub. Azərbaycan Dövlət Darülfününun dil və ədəbiyyat fakültəsini bitirib. Əmək fəaliyyətinə pedaqoq kimi başlayıb. Bakı orta məktəblərində yeddi il müəllimlik edib.

Poetik yaradıcılığa 1926-cı ildə “Gənc işçi” qəzetində çap etdirdiyi “Bir gün” şeiri ilə başlayıb. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış edib. İlk kitabı - “Küləklər” 1930-cu ildə nəşr olunub. M.Müşfiq bədii tərcümə ilə də ciddi məşğul olub. 1930-1937-ci illərdə onun 5 tərcümə kitabı nəşr edilib. Bunlar A.S.Puşkinin “Qaraçılar” (Ş.Abbasovla birlikdə),Taras Şevçenkonun “Kobzar”(Əhməd Cavadla birlikdə),Yegişe Çarensin “Şeirlər”, S.Y.Marşakın “Huşsuza bax, huşsuza”, M.F.Axundovun “A.S.Puşkinin ölümünə şərq poeması” kitablarıdır.

**Mikayıl Müşfiq niyə öldürülmüşdü?**

Bu sual təkcə bir şairin faciəli taleyini deyil, bütöv bir dövrün - qorxu, yalan və zorakılıq üzərində qurulmuş totalitar sistemin mahiyyətini açır. Müşfiq güllələnəndə cəmi 29 yaşı vardı. Onu öldürən isə bir güllə yox, sözə düşmən olan bir rejim idi.

1930-cu illərin sonları Sovet imperiyasının ən qaranlıq səhifələrindən biri idi. “Böyük terror” adlanan bu dövrdə minlərlə ziyalı, alim, yazıçı və şair “xalq düşməni” damğası ilə məhv edildi. Mikayıl Müşfiq də həmin qurbanlardan biri oldu. Rəsmi ittihamlar tanış idi: millətçilik, pantürkizm, antisovet düşüncə, “ideoloji azğınlıq”. Amma bu ittihamların heç biri gerçək deyildi. Gerçək olan yalnız bir şey idi: Müşfiq azad düşünürdü...

1937-ci ildə Müşfiq həbs olundu. İstintaq saxta ifadələr, məcburi etiraflar üzərində quruldu. O dövrdə həqiqətin heç bir dəyəri yox idi, hökm əvvəlcədən verilmişdi. 1938-ci ilin 6 yanvarında Mikayıl Müşfiq gizli şəkildə güllələndi. Onun məzarı belə uzun illər naməlum qaldı. Rejim təkcə şairi yox, xatirəni də silmək istəyirdi.

Amma tarix göstərdi ki, güllə sözə qalib gələ bilmir. Müşfiqin adı qadağan edilsə də, şeirləri yaddaşlardan silinmədi. O, fiziki olaraq öldürüldü, amma mənəvi olaraq yaşadı. Bu gün Müşfiq təkcə repressiya qurbanı kimi yox, azad sözün simvolu kimi xatırlanır. Mikayıl Müşfiq qısa, lakin son dərəcə mənalı ömür yolu keçərək Azərbaycan ədəbiyyatında silinməz iz qoydu.

İyunun 5-i Azərbaycan poeziyasının zənginliyini, söz sənətinin qüdrətini və sənətin zaman üzərində qələbəsini xatırladan əlamətdar bir gündür. Çünki Mikayıl Müşfiqin qələmindən süzülən misralar illər keçsə də öz təravətini qoruyur, yeni oxucular qazanır və Azərbaycan ədəbiyyatının səmasında parlaq bir ulduz kimi işıq saçmaqda davam edir.

*Yeganə BAYRAMOVA*

# Zamanın tələblərindən biri...




## Su resurslarının qorunması milli təhlükəsizlik məsələsidir

Ölkəmizin sosial-iqtisadi inkişafında meliorasiya və su təsərrüfatı layihələri mühüm yer tutur. Su ehtiyatlarının məhdud olması, iqlim dəyişikliyi təsirlərinin getdikcə daha çox hiss olunması, çaylarda su səviyyəsinin azalması və yağıntıların əvvəlki illərlə müqayisədə aşağı düşməsi bu sahədə yeni və effektiv tədbirlərin həyata keçirilməsini zəruri edir. Eyni zamanda əhalinin rifahının yüksəlməsi və suya olan tələbatın artması mövcud infrastrukturun daha da təkmilləşdirilməsini tələb edir. Bu konteksdən yanaşdıqda Azərbaycanda meliorasiya və su təsərrüfatının müasirlik, ekoloji təhlükəsizlik və maksimum səmərəlilik prinsipləri ilə inkişaf etdirilməsi hədəflənib.

Son illərdə respublikamızda mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və təsərrüfat subyektlərinin su təchizatının yaxşılaşdırılması məqsədilə görülən tədbirlərin əhatə dairəsi kifayət qədər genişdir. Buraya həm hüquqi bazanın möhkəmləndirilməsini özündə ehtiva edən qərarlar, həm də praktiki müstəvidə görülən işlər, böyük investisiya qoyuluşu hesabına reallaşdırılan layihələr daxildir.

Respublikamızda icra olunan su layihələrinin statistikası da olduqca zəngindir. Son 20 ildə ölkəmizdə reallaşdırılan bir neçə su layihəsi, o cümlədən yeni yaradılan su anbarlarını xüsusilə vurğulamaq lazımdır. Respublikamızda Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə kimi su anbarlarının yaradılması ölkəmizin su təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması baxımından strateji önəm daşıyır. Bütövlükdə, yüksək səviyyədə qurulan müasir infrastruktur respublikamızda məhdud su ehtiyatlarından daha səmərəli istifadə olunması imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də insanları sağlam və ekoloji cəhətdən təmiz içməli su ilə təmin etməkdir. Bu gün ölkəmizin müxtəlif bölgələrində içməli su sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür.

Vətən müharibəsində işğaldan azad edilən ərazilərin su resurslarından istifadə edilməsi, azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsi bu gün diqqət mərkəzindədir. İşğal altındakı ərazilərdə “yaşıl soyqırımı” həyata keçirən, meşələrimizi qıran, torpaqlarımızı amansızcasına istismar edən Ermənistan, həmçinin respublikamızın özünün su mənbələrinə çıxış imkanlarının da qarşısını almışdı. İşğal altındakı ərazilərdə yerləşən Sərsəng və Suqovuşan su anbarları düşmənin nəzarətində idi. Sərsəng Su Anbarında 565 milyon kubmetrdən çox su toplanırdı. Əvvəllər bu mənbədən Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda 100 min hektara yaxın torpağa su verilirdi.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə respublikamızın böyük çay resursları var. Bu ərazilərdə 10-dan çox çay formalaşır. Ölkəmiz işğalın davam etdiyi 30 il ərzində bütün bu su mənbələrindən istifadə edə bilmirdi. Artıq tarixi ədalət bərpa olunub. Respublikamız ölkənin digər bölgələrində olduğu kimi, işğaldan azad olunan ərazilərin su resurslarından da səmərəli istifadə etmək niyyətindədir.

Yeri gəlmişkən, bu gün su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramıdır. Bayram Prezidentin 2014-cü il 14 may tarixli sərəncamı ilə artıq 12 ildir ki, iyunun 5-i qeyd olunur. Əlamətdar gün ölkənin su ehtiyatlarının qorunması, idarə olunması və səmərəli istifadəsi istiqamətində böyük zəhmət göstərən insanların əməyinə verilən yüksək qiymətin ifadəsidir. Onların gecə-gündüz fəaliyyəti nəticəsində quraqlıqdan əziyyət çəkən torpaqlar yenidən canlanır, məhsuldarlığını itirmiş əkin sahələri bərpa olunur, kəndlərə və şəhərlərə həyat mənbəyi olan su çatdırılır, əhalinin və iqtisadiyyatın mühüm ehtiyacları qarşılanır.

*Yeganə BAYRAMOVA*

# Təbiətə borcumuzu xatırladan gün

## Ətraf mühitin qorunması bu günün və sabahın məsuliyyəti...

Bir zamanlar saf axan çayların, sıx meşələrin və təmiz havanın adi qəbul edildiyi dünyamızda bu gün iqlim dəyişiklikləri, hava çirklənməsi, su ehtiyatlarının azalması kimi problemlər var. Bu gün təbiətə vurulan hər bir zərər insan həyatının keyfiyyətinə, sağlamlığına və rifahına birbaşa təsir göstərir. Ətraf mühitin mühafizəsi yalnız ekoloqların və müvafiq qurumların deyil, bütün bəşəriyyətin qarşısında duran ən vacib vəzifələrdən birinə çevrilib.

Yeri gəlmişkən, bu gün Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür. Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən təsis edilən əlamətdar gün bütün ekoloqlar və ekoloji təşkilatlar üçün qlobal diqqəti ekoloji problemlərə cəlb etmək üçün əsas vasitələrdən biridir. Bu, ekoloji təqvim 1972-ci il dekabrın 15-də BMT Baş Assambleyasının 27-ci sessiyasında elan edilib. Həmin günün qeyd edilməsi hər bir insanda ətraf mühitin mühafizəsinə töhfə vermək istəyini oyatmaq və daha çox insanı planetin təbii həyat təminatı sistemlərinə artan təzyiqin kritik həddə çatmasının qarşısını almaq üçün tədbirlər görməyə təşviq etmək məqsədi daşıyır.

**2050-ci ilə qədər quraqlıq dünyanın 75 faizindən çoxunu əhatə edə bilər**

Təəssüf ki, Yer planetinin ekosistemləri uzun müddət istismar və məhv edilib. Dünya hər üç saniyədə bir futbol meydançası boyda meşə sahəsini itirir və planetin bataqlıq ərazilərinin və mərcan riflərinin yarısı ötən əsrdə məhv olub. Ekosistem itkisi dünyanı meşələr və torf torpaqları kimi karbon yuvalarından məhrum edir. Qlobal istixana qazları emissiyaları son üç ildir ki, ardıcıl olaraq artıb və planet potensial fəlakətli iqlim dəyişikliyinin bir addımlığındadır.

Atmosferin temperaturu insanlar və təbiətin ona uyğunlaşa bilməyəcək qədər sürətlə yüksəlir, kiçilən yaşayış yerləri bir milyona yaxın növün itirilməsi ilə təhdid edilir. Biz isə havanı, torpağı və suyu çirkləndirməyə davam edirik. Bütün dünyada ekosistemlər təhlükə altındadır. Meşələrdən və quru ərazilərdən tutmuş əkin sahələrinə və göllərə qədər bəşəriyyətin asılı olduğu təbii məkanlar geri dönüşü olmayan nöqtəyə yaxındır. Planetin torpaqlarının 40 faizi deqradasiyaya uğrayıb və bu, dünya əhalisinin yarısına birbaşa təsir edir. 2000-ci ildən bəri quraqlıqların sayı və müddəti 29 faiz artıb. Təcili tədbirlər görülməzsə, 2050-ci ilə qədər quraqlıq dünya əhalisinin 75 faizindən çoxunu əhatə edə bilər. Üstəlik, COVID-19-un ortaya çıxması ekosistem itkisinin nə qədər fəlakətli nəticələri ola biləcəyini göstərdi.

Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü hər bir insan, həm də bütün dünya üçün bir hadisədir. 1972-ci ildə qeyd olunmağa başlayandan bəri bir çox ölkədə minlərlə insan ağac əkmək və vəhşi təbiət cinayətlərinə qarşı mübarizəyə qədər müxtəlif tədbirlər həyata keçirib. Bu illər ərzində müxtəlif ölkələrdən və sosial sektorlardan minlərlə insan ətraf mühitin qorunması üçün xüsusi tədbirlərdə iştirak edib. Həmin təqvim bu gün bizim hər birimizə planetimizin qayğısına qalmaq üçün məsuliyyət götürmək və dəyişikliklərə fəal töhfə vermək imkanı verir.




**2,5 milyondan çox ağac əkilib**

Dünyanın müxtəlif ölkələrində olduğu kimi Azərbaycanda da ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Nazirlik ətraf mühitin çirklənməsinə səbəb ola biləcək fəaliyyətin qarşısının alınması, beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə ətraf mühitin mühafizəsi sahəsində əlaqələrin genişləndirilməsi, əhali arasında ekoloji təbliğatın və maarifləndirmənin gücləndirilməsi prinsiplərini tətbiq edir.

Son illər Bakıda və ətraf yaşayış massivlərində həyata keçirilən ekoloji tədbirlər, o cümlədən kütləvi ağacəkmə aksiyaları, reintroduksiya layihələri birbaşa ətraf mühitin qorunmasına və yaşıllaşdırmaya xidmət edir. Hər il Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən meşəbərpa tədbirləri həyata keçirilir, yeni meşə sahələri və yaşıllıqlar salınır, qiymətli ağac və kol cinslərinin qorunması və artırılması sahəsində işlər görülür. Ətraf mühitin mühafizəsi tədbirlərində IDEA İctimai Birliyi, Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi də aktiv iştirak edir.

Son illər qarşıda duran əsas prioritetlər arasında azad edilmiş ərazilərin ətraf mühitinin bərpası ön sıradadır. Həmin ərazilər minalardan təmizləndikcə görülən işlərin miqyası da genişlənir.

2024-cü ildə ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən layihələr çərçivəsində yeni ağaclar əklib, yaşıllıqlar salınıb, milli parklar yaradılıb. 2024-cü ilin dekabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının - COP29-un Bakıda keçirilməsi ətraf mühit və iqlim dəyişmələri sahəsində yeni nümunəvi ekoloji platformanın əsasını qoyub.

Göründüyü kimi, ətraf mühitin qorunması insanın öz həyatını qoruması deməkdir. Təmiz hava nəfəs aldığımız, təmiz su içdiyimiz, münbit torpaq isə qidalandığımız həyat mənbəyidir. Bu sərvətlərin itirilməsi yalnız ekoloji deyil, həm də sosial və iqtisadi böhranlara yol aça bilər.

*Yeganə BAYRAMOVA*

## Allah rəhmət eləsin!

BDU-nun Tətbiqi Riyaziyyat Elmi -Tədqiqat İnstitutunun kollektivi Fizika Problemləri İnstitutunun əməkdaşı Ləman Abdullayevaya anası

**AYNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüzünlə baş sağlığı verir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5359**
**Sifariş: 703**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova